QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



“SƏS” qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 228 (5459) 13 **dekabr** 2017-ci il. “Əlincə” Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# Prezident İlham Əliyev Türkiyədə səfərdədir




AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 12-də Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın dəvəti ilə İslam Əməkdaşlıq Təşkilatının Qüds məsələsi ilə bağlı fövqəladə Zirvə toplantısında iştirak etmək üçün İstanbula gəlib.

Azərbaycan Prezidenti İlham Əliyev ümummilli lider Heydər Əliyevin məzarını ziyarət edib



2

Birinci vitse-prezident Mehriban Əliyeva Beynəlxalq Sərgilər Bürosunun baş katibinin müavini ilə görüşüb



3

Naxçıvanda ümummilli liderimiz Heydər Əliyevin əziz xatirəsi dərin ehtiramla yad edilib



4

Heydər Əliyev: dahi xilaskar və dövlət qurucusu



5

Dimitri Kerkentzes: “Azərbaycan “Expo-2025” üçün yeni və çox maraqlı bir məkandır”




7

“Ermənilər başa düşüblər ki, “talış kartı” Azərbaycanın əleyhinə işləməyəcək”



10

10

Həştərxan vilayəti qubernatorunun Bakıya səfəri gözlənilir



14

Əli Kərimlinin siyasi fəaliyyəti xəyanət və satqınlıqdan ibarətdir



16

Azərbaycan Qran Prisi 2017-ci ilin ən yaxşı yarışı seçilib



# Azərbaycan Prezidenti İlham Əliyev ümummilli lider Heydər Əliyevin məzarını ziyarət edib





Müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, dünya şöhrətli siyasi xadim, xalqımızın ümummilli lideri Heydər Əliyevin vəfatından 14 il keçir. AZƏRTAC xəbər verir ki, dekabrın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri Fəxri xiyabana gələrək xalqımızın ümummilli lideri Heydər Əliyevin məzarını ziyarət ediblər.

Milli Məclisin deputatları, nazirlər, komitələrin, şirkətlərin və idarələrin rəhbərləri, respublika ictimaiyyətinin nümayəndələri də Fəxri xiyabana gəlmişdilər. Prezident İlham Əliyev Ulu Öndərin məzarı önünə əklil qoydu. Azərbaycanın dövlət himni səsləndi. Dövlətimizin başçısı İlham Əliyev və ailə üzvləri Ulu Öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da məzarı üzərinə gül dəstələri qoydular.

Tanınmış dövlət xadimi Əziz Əliyevin və professor Tamerlan Əliyevin də xatirələri yad edildi, məzarları üstünə gül dəstələri düzüldü. Ümummilli lider Heydər Əliyevin məzarının ziyarəti mərasimində Baş nazir Artur Rasi-zadə, Milli Məclisin sədri Oqtay Əsədov, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev və digər rəsmi şəxslər iştirak ediblər.

Azərbaycanın ən yeni tarixinin bütöv bir qərinəsi Heydər Əliyevin adı ilə bağlıdır. Qeyri-adi şəxsiyyəti, siyasət və dövlət xadiminə xas olan böyük istedadı ilə fərqlənən, xarizmatik lider olan Heydər Əliyev hələ sağlığında canlı əfsanəyə çevrilmişdi. 1969-cu ildə respublika rəhbərliyinə gələn Heydər Əliyev, əslində, sosial-iqtisadi böhran keçirən Azərbaycanı 1970-1980-ci illərdə keçmiş İttifaqın ən qabaqcıl respublikalarından biri səviyyəsinə çıxarmışdı. Tədqiqatçılar haqlı olaraq vurğulayırlar ki, müasir mərhələdə Azərbaycanın dövlət suverenliyi və iqtisadi müstəqilliyi məhz həmin illərdə təməli qoyulmuş potensiala əsaslanır.

*Ardı Səh. 3*

# Azərbaycan Prezidenti İlham Əliyev ümummilli lider Heydər Əliyevin məzarını ziyarət edib





**Əvvəli-Səh-2**

1993-cü ilin yayında, müstəqilliyini yenicə bərpa etmiş Azərbaycanın taleyinin Tanrının ümidinə qaldığı bir vaxtda xalq özünün və ölkənin gələcəyini Heydər Əliyevə etibar etdi. Bu, böyük Qayıdış idi və Ulu Öndər müdrikliyi, zəngin siyasi və dövlətçilik təcrübəsi, sarsılmaz qətiyyəti, yenilməz iradəsi sayəsində ölkəni, xalqı, gənc müstəqil dövləti labüd fəlakətlərdən qurtardı. Qədirbilən Azərbaycan xalqı dahi oğlunun bu əvəzsiz xidmətlərini heç vaxt unutmur.

Azərbaycan dövlətçiliyinin xilaskarı, türk dünyasının böyük oğlu Heydər Əliyevin vəfatından ötən illər ərzində görkəmli şəxsiyyətin, əbədiyaşar Prezidentimizin məzarı xalqımızın müqəddəs ziyarətgahına, gənclərin and yerinə çevrilib. Bütün il boyu insanlar buraya gəlir, xalqımızı, Azərbaycanı dünyaya tanıdan, özü də dünyanın görkəmli şəxsiyyətlərindən biri kimi tanınan böyük azərbaycanlının xatirəsinə ehtiramlarını ifadə edirlər.

Azərbaycanın dahi oğlu Heydər Əliyevin əbədiyyətə qovuşmasının 14-cü ildönümü günü - dekabrın 12-də də paytaxt sakinləri, respublikamızın rayon və şəhərlərinin nümayəndələri, xarici ölkələrdən gəlmiş qonaqlar Fəxri xiyabanda xalqımızın Ümummilli Liderinin xatirəsini dərin ehtiramla yad edir, onun məzarı önünə əklillər, gül dəstələri qoyur, müdrik dövlət xadiminə Allahdan rəhmət diləyirlər.

# Birinci vitse-prezident Mehriban Əliyeva Beynəlxalq Sərgilər Bürosunun baş katibinin müavini ilə görüşüb



Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva dekabrın 12-də Beynəlxalq Sərgilər Bürosunun baş katibinin müavini Dimitri Kerkentzes ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, Azərbaycanın Birinci vitse-prezidenti noyabr ayında Parisdə Bakının Ümumdünya "Expo-2025" sərgisinə namizəd şəhər olması ilə bağlı qəbulun təşkil edildiyini, həmçinin Beynəlxalq Sərgilər Bürosunun 162-ci Assambleyası çərçivəsində Azərbaycan nümayəndə heyəti tərəfindən "Bakı Expo 2025"in təqdimatının keçirildiyini xatırlatdı. Mehriban Əliyeva məmnuniyyətlə qeyd etdi ki, ölkəmiz son illər Beynəlxalq Sərgilər Bürosu ilə səmərəli əməkdaşlıq edir. Azərbaycanın beynəlxalq sərgilərdə uğurla iştirak etdiyini deyən Mehriban Əliyeva Beynəlxalq Sərgilər Bürosunun baş katibinin müavini Dimitri Kerkentzesin bu sərgilərin keçirilməsinə dəstəyini xüsusi vurğuladı. Ümumdünya "Expo-2025" üçün Bakının da öz namizədliyini irəli sürdüyünü deyən Birinci vitse-prezident ölkəmizin bu sahədə zəngin təcrübəsini qeyd etdi. Bildirdi ki, son illərdə Bakı bir neçə beynəlxalq tədbirə uğurla ev sahibliyi edib. "Bu tədbirlərin yüksək səviyyədə keçirilməsi göstərir ki, ölkəmiz "Expo-2025"in keçiriləcəyi məkan kimi seçilsə, bu tədbir də yüksək hazırlığı ilə yadda qalacaq", - deyən Mehriban Əliyeva "Expo-2025"in Bakıda təşkili təşəbbüsünün həm dövlət qurumları, həm hökumət, həm də cəmiyyət tərəfindən dəstəkləndiyini vurğuladı. Birinci vitse-prezident ölkəmizin sərgi üçün təklif etdiyi "İnsan kapitalını inkişaf etdirərək, daha gözəl gələcək quraq" mövzusunun dünya üçün aktuallığını qeyd etdi. Dimitri Kerkentzesin ikinci dəfədir ki, Azərbaycana səfər etdiyini deyən Mehriban Əliyeva onun "Expo-2025" sərgisi ilə bağlı təkliflərinin və tövsiyələrinin ölkəmiz üçün çox faydalı olacağına əminliyini ifadə etdi. Bildirdi ki, gələn il ölkəmizi növbəti mərhələ - qiymətləndirmə missiyasını qəbul etmək və görülən işlər barədə məlumat təqdim etmək gözləyir. Bu baxımdan Beynəlxalq Sərgilər Bürosunun baş katibinin müavininin ölkəmizə səfəri böyük əhəmiyyətə malikdir.

Beynəlxalq Sərgilər Bürosunun baş katibinin müavini Dimitri Kerkentzes Azərbaycanda olmaqdan məmnunluğunu bildirdi. Dimitri Kerkentzes qeyd etdi ki, Azərbaycan dövlətinin, o cümlədən Birinci vitse-prezident Mehriban Əliyevanın Bakının "Expo-2025"ə namizədliyini irəli sürməsi ilə bağlı tədbirləri dəstəkləməsi Azərbaycanın bu layihəyə önəm verdiyini nümayiş etdirir.



## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə memarlığın inkişafındakı xidmətlərinə və şəhərsalma sahəsində uzunmüddətli səmərəli fəaliyyətinə görə Abbas Abbas oğlu Ələsgərov 2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilib.

# Naxçıvanda ümummilli liderimiz Heydər Əliyevin əziz xatirəsi dərin ehtiramla yad edilib

Dekabrın 12-də Naxçıvan şəhərində ümummilli liderimiz Heydər Əliyevin əziz xatirəsi dərin ehtiramla yad edilib. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov ümummilli liderimiz Heydər Əliyevin abidəsi önünə tər gül dəstəsi qoyub, xalqımızın böyük oğlunun xatirəsinə ehtiramını bildirib. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin, Nazirlər Kabinetinin, Naxçıvan Şəhər İcra Hakimiyyətinin, nazirlik, komitə, şirkət və baş idarələrin, müəssisə və təşkilatların, ali və orta ixtisas məktəblərinin kollektivləri, hərbi hissələrin, ictimaiyyətin nümayəndələri, minlərlə insan Ulu Öndərin abidəsini ziyarət edərək, dahi şəxsiyyətin əziz xatirəsinə sonsuz məhəbbətlərini ifadə ediblər.



Azərbaycanda müstəqilliyin əbədi və dönməz xarakter alması, dövlətçiliyin möhkəmləndirilməsi, iqtisadi inkişaf üçün möhkəm təməlin yaradılması, ordu quruculuğu və milli-mənəvi yüksəliş Heydər Əliyev siyasi xəttinin əsasını təşkil edir. Xalqını xoşbəxt görmək, onun milli maraqlarını qorumaq, Vətənini müstəqil etmək Ulu Öndərin həyatının mənası idi. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dediyi kimi: "İnsan tarixə öz əməlləri ilə düşür. Heydər Əliyev tarixin böyük bir hissəsidir. Onun əməlləri, bütün təşəbbüsləri bir məqsəd daşıyırdı - Azərbaycan xalqına xidmət etmək, ölkəmizi gücləndirmək, müstəqilliyimizi möhkəmləndirmək, ölkəmizdə demokratik cəmiyyət qurmaq".

Şəxsiyyəti tarix yaradır. Ümummilli lider Heydər Əliyev isə tarix yaradan, müasir dünyanın siyasi tarixində izini qoymuş böyük şəxsiyyət və dövlət xadimidir. O, qeyri-adi istedadı, dərin zəkası və möhtəşəm dövlətçilik məharəti ilə bütün dünyada Azərbaycan adlı sönməz bir məşəl yandırıb.Ümummilli Liderimiz öz gücünü xalqından alırdı, xalqına arxalanırdı, xalqına güvənirdi. Onun zəngin siyasi irsinin əsasında da məhz xalq-rəhbər birliyi dayanırdı. Dövləti və xalqı qarşısında müstəsna xidmətlər göstərən xalqımızın böyük oğlu deyirdi: "Mənim üçün xalqın mənə göstərdiyi etimaddan və etibardan yüksək mükafat yoxdur. Başçılıq etdiyim dövlətdə mən özüm üçün başqa bir mükafat görmürəm".



Dahi şəxsiyyətin həyatı və siyasi fəaliyyəti Vətənə xidmət nümunəsidir. 1969-cu ildən başlanan şərəfli missiya - Azərbaycanın iqtisadi inkişafının əsaslarının yaradılması, zəngin iqtisadi potensialın formalaşdırılması və onu ölkənin gələcək inkişafına, xalqın rifahının yüksəldilməsinə yönəldilməsi, milli kimliyin bərpası və kadr hazırlığına başlanması dahi şəxsiyyətin müstəqil Azərbaycanın gələcəyi üçün həyata keçirdiyi mühüm tədbirlər idi. Həmin dövrdə ölkəmizdə böyük istehsal müəssisələri, zavodlar, fabriklər istifadəyə verildi, təhsil, səhiyyə, mədəniyyət ocaqlarının geniş şəbəkəsi yaradıldı, dərin köklərə malik olan mənəvi dəyərlər bərpa edildi.

Vətəninin, xalqının taleyini öz taleyinə çevirən, Vətənin xilasını özünün tarixi missiyası kimi qəbul edən ümummilli liderimiz Heydər Əliyevin Azərbaycan naminə fəaliyyətinin Naxçıvan dövrü müstəqillik yolunda xüsusi mərhələ təşkil edir. Heydər Əliyevin müdrikliyi, siyasi təcrübəsi və möhkəm iradəsi nəticəsində 1990-1993-cü illərdə Naxçıvan işğaldan qorunub, muxtar respublika üzləşdiyi bütün çətinlikləri dəf edib, bu qədim diyarda müstəqil dövlətçiliyimizin əsasları işlənib hazırlanıb. Dahi şəxsiyyətin uzaqgörən siyasəti sayəsində muxtar respublikanın adından "sovet, sosialist" sözləri çıxarılıb, Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı dövlət bayrağı kimi qəbul edilib, ilk milli ordu hissələri yaradılıb. 1993-cü il iyunun 15-də xalqın təkidli tələbi ilə yenidən siyasi hakimiyyətə qayıdan Ümummilli Lider ölkədə ictimai-siyasi sabitliyi təmin edib, sosial-iqtisadi inkişafın əsasını qoyub, Azərbaycanın haqq səsini bütün dünyaya çatdırıb. Möhtərəm Heydər Əliyevin ölkəmizdə birinci hakimiyyəti gələcək müstəqillik üçün iqtisadi və milli ideoloji bazanın yaradılmasına hesablanmışdırsa, Azərbaycanda ali hakimiyyətə ikinci qayıdışı MİLLİ QURTULUŞ və müstəqil dövlətçilik tariximizə çevrilmişdir. "Mən həyatımı insanlara səadət gətirməyə həsr etmişəm. Mən həyatımı xalqın azadlığına həsr etmişəm. Mən həyatımı millətimin, xalqımın rifahının yaxşılaşdırılmasına həsr etmişəm. Həyatımı Azərbaycan torpağında qurub-yaratmağa həsr etmişəm", - deyən Ulu Öndər bu ali missiyanı gerçəkləşdirərək müstəqil Azərbaycan dövlətini yaratdı, onun gələcək inkişaf yolunu müəyyənləşdirdi. Milli Qurtuluşdan başlanan bu yol dövlət müstəqilliyimizi əbədi, dönməz və sarsılmaz etdi, Azərbaycan davamlı inkişaf və yüksəliş mərhələsinə qədəm qoydu. Ulu öndər Heydər Əliyevin Azərbaycan xalqının milli sərvətinə çevrilmiş çox dəyərli iki əsəri var: bunlar müstəqil Azərbaycan dövləti və bu dövlətin gələcək inkişaf yolunu müəyyənləşdirən siyasi xətdir. Bu mənada əminliklə demək olar ki, dahi rəhbərin siyasi irsi xalqımızın müstəqillik yolunu işıqlandıran mayakdır. Ümummilli Liderimizin siyasi kursu bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam və inkişaf etdirilir. Ümummilli Liderimiz azərbaycanlı olması ilə fəxr etdiyi kimi, hər bir azərbaycanlı da bu gün Heydər Əliyevin ən böyük əsəri olan müstəqil, inkişaf etmiş Azərbaycanın vətəndaşları olmaqdan qürur duyur, Ulu Öndərə məhəbbətlərini onun ideyaları ətrafında daha da sıx birləşməklə nümayiş etdirir.

Heydər Əliyev siyasi xəttinə dərin sədaqət və bu yolun uğurla davam etdirilməsi Naxçıvan Muxtar Respublikasının da kompleks inkişafının əsasını qoyub, muxtar respublika dahi rəhbərin arzuladığı inkişafa qovuşub, etibarlı müdafiə sistemi yaradılıb, ərzaq və enerji təhlükəsizliyi təmin edilib. Bu gün Naxçıvan Muxtar Respublikasında geniş quruculuq işləri aparılır, əhalinin rifahı ilbəil yaxşılaşdırılır, yaşayış məntəqələri müasirləşdirilir, yeni sosial obyektlər, xidmət və istehsal sahələri istifadəyə verilir. Ümummilli lider Heydər Əliyevin ideyaları müstəqil Azərbaycanın inkişaf yoludur. Bu yol dünən və bu gün olduğu kimi, gələcəkdə də müstəqil Azərbaycana qələbələr qazandıracaqdır. Bu gün biz Heydər Əliyev deyəndə Azərbaycan, Azərbaycan deyəndə Heydər Əliyev düşünürük. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dediyi kimi: "Bu gün ölkəmizin və muxtar respublikamızın sosial-iqtisadi, elmi və mədəni həyatında gedən proseslərin kökündə fəal yaradıcı gücə malik olan Heydər Əliyev milli dövlətçilik konsepsiyası, inkişafın Heydər Əliyev modeli dayanır. Gecəli-gündüzlü fədakar əməyi ilə müstəqil Azərbaycan dövlətini yaradan, Azərbaycanı öz həyatının mənası bilən Ulu Öndərimizin xalqımız qarşısında xidmətləri unudulmazdır. Özündən sonra qüdrətli Azərbaycan adlı möhtəşəm abidə qoyub gedən Ümummilli Liderimizin adı, siyasi və dövlətçilik fəaliyyəti müstəqil Azərbaycanla birgə yaşayır və yaşayacaqdır!".



Dekabrın 12-də muxtar respublikanın bütün rayon mərkəzlərində də Ümummilli Liderimizin əziz xatirəsi dərin ehtiramla yad edilib.

# Heydər Əliyev: dahi xilaskar və dövlət qurucusu



Azərbaycan xalqının görkəmli oğlu Heydər Əliyevin irsi olduqca zəngindir. Onun həyat fəaliyyətində ibrətverici məqamlar kifayət qədərdir. Ulu Öndərin irsinin dərk edilməsi özlüyündə çətindir. Lakin Azərbaycanda müstəqil dövlət quruculuğunda gördüyü işləri təhlil edib geniş oxucu kütləsinə çatdırmaq dövlət əhəmiyyətli strateji məsələdir. Çünki Heydər Əliyev nadir tarixi şəxsiyyətlərdəndir ki, mükəmməl dövlət quruculuğu konsepsiyasını işləyib reallaşdıra bildi. Əvvəlcə Azərbaycanı böyük bir fəlakətdən xilas etdi, sonra isə dövrün tələblərinə yüksək dərəcədə cavab verən müstəqil demokratik dövlət quruculuğu konsepsiyasını işləyib hazırladı, Azərbaycanın dünyada layiqli yerini tutması üçün uzun illər çalışdı, müstəqil Azərbaycanın memarı və qurucusu kimi tarixdə yerini tutdu. Heydər Əliyev barədə dünyanın tanınmış şəxslərinin ifadə etdiyi fikirlər bir daha onun nə dərəcədə müdrik, eyni zamanda, praqmatik bir lider olduğunu təsdiqləyir. Ümummilli Lider əsl məktəbdir, başqa xalqların həsəd apardığı dövlətçilik məktəbi! Heydər Əliyevin fəaliyyətinin bir sıra aspektləri üzərində geniş dayanmağa böyük ehtiyac hiss edirik.

### Dahilər ölməz: dövlətçiliyin qurtuluşunun üç aspekti

Ulu öndər Heydər Əliyev haqqında adi söz demək mümkün deyil. Onun barəsində



**Novruz Məmmədov, Azərbaycan Respublikası Prezidentinin xarici siyasət məsələləri üzrə köməkçisi - şöbə müdiri, Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü**

səmimi ifadə edilən hər bir fikirdə bir ucalıq, yüksək məna çaları var. Dünyanın müxtəlif ölkələrinin siyasi liderlərinin Ümummilli Liderlə bağlı söylədiklərini bir yerə cəmləşdirsək, dünyanın ən dahi siyasi liderlərindən birinin "siyasi portreti" alınar. Hər kəs də onu dərhal tanıyar: "Bu, Heydər Əlirza oğlu Əliyevdir. Türk və müsəlman dünyasının fəxri, Azərbaycan xalqının qüdrətli oğlu! Dünya siyasətinin nəhəngi və hətta rəqiblərin tərəfindən yüksək qiymətləndirilən nadir bir şəxsiyyət"!

Heydər Əliyev XX əsr Azərbaycan siyasətinin ən parlaq siması və XXI əsr müstəqillik kursunun memarıdır. Onun həyata keçirdikləri, nəzəri ifadə etdiyi, praktiki diplomatiyaya verdiyi töhfələr hələ uzun illər araşdırılacaq və hər dəfə də yeni bir incəlik tapılacaq. Bu proses sonsuzdur...

1993-cü ilin iyun ayının 15-də Azərbaycan müstəqil dövlət kimi uçurumun kənarında dayanmışdı. Ölkəyə rəhbərlik edən səriştəsiz siyasi qruplar çıxış yolu tapa bilmirdilər. Düşmən isə addım-addım müstəqil dövlətçiliyimizə qəsd etməkdə idi. Onun qarşısını ala bilmirdilər. Bu ağır zamanda xalq təkidlə Heydər Əliyevin siyasət səhnəsinə qayıdışına nail oldu. Elə həmin anda da düşmən düşərgəsində təcrübəli bir siyasətçi "biz batdıq" naləsini çəkdi. Həyat həmin erməni kommunist siyasətçinin haqlı olduğunu sübut etdi!

Hər şey həmin tarixdən - iyunun 15-dən başladı. Bu tarix bir neçə anlamda Azərbaycanın qurtuluşunun başlanğıcı oldu. Birincisi, dövlətçilik ideyası iflasdan qurtuldu. Çünki dövlət idarəçiliyinin nə olduğunu bilməyən naşı adamlar Azərbaycan cəmiyyətində tədricən müstəqillik ideyası ilə bağlı bədbin əhval-ruhiyyə yaradırdılar. Bir-birini əvəz edən məğlubiyyətlər insanlarda belə bir şübhə yaradırdı: "bəlkə biz, heç müstəqil dövlət qurmağa qadir deyilik?" Tarix göstərir ki, bu pessimizm çox təhlükəlidir və faktiki olaraq millətin öz məğlubiyyətini qəbul etməsinin ilk dərin göstəricisidir.

Əgər cəmiyyətdə dövlət quruculuğuna inam yoxdursa, onu başqa heç bir ideya ilə ayaqda durmağa məcbur etmək mümkün deyildir. Düşmənlər tərəfindən aparılan təxribatçı ideoloji fəaliyyət yaranmış vəziyyəti daha da acınacaqlı edirdi. Bu məqamda siyasət səhnəsinə Heydər Əliyev çıxdı və xalqda dövlət quruculuğuna dərin inam yaratdı! Buna necə nail oldu? Hər şeydən əvvəl, təmkinli, ölçülü-biçili, inamlı və real siyasəti ilə vəziyyəti dəyişdi. Heydər Əliyev müxtəlif bölgələrə səfərləri zamanı siyasi qruplar arasındakı ziddiyyətləri yumşalda bildi və onlara dövlət üçün çalışmağın əsas vəzifə olduğunu anlatdı. Bu zaman Ulu Öndərin siyasi və diplomatik ustalığı həqiqətən də dövlət quruculuğu tarixinin ən parlaq səhifələrindən oldu.

Xaricdəki düşmənlər və ölkənin daxilində at oynadan naşı siyasi qruplar anladılar ki, Azərbaycanda dövlət quruculuğu prosesini dayandırmaq mümkün olmayacaq! Bu, ilk qələbə idi!

Dövlətçilik ideyası Azərbaycanda bu cür xilas edildi - xalq müstəqil dövlət qurmağın zəruriliyini tam olaraq Heydər Əliyevin liderliyi ilə qəbul etdi və qısa bir müddətdə cəmiyyət Ulu Öndərin ətrafında birləşdi. Onun bir çağırışı ilə milyonlarla insanlar meydanlara axışmağa başladılar. Bu məqamda isə bütün dünya anladı ki, Azərbaycana təcrübəli, güclü iradəli və uzaqgörən bir lider başçılıq edir. Onu yolundan döndərmək mümkün deyildir.

Sanki bütün bunları ümumiləşdirərək, məşhur amerikalı siyasi xadim və politoloq Zbiqnev Bjezinski demişdi: "Heydər Əliyev siyasi cəhətdən möhkəm, məntiqli, zəkalı, istədiyini tez çatdıran şəxsiyyət - bir sözlə, şəksiz liderdir". Bəli, Azərbaycan xalqının şəksiz lideri onu addım-addım irəliyə aparıb qələbələrə çatdırdı.

İkincisi, Heydər Əliyev Azərbaycan cəmiyyətini siyasi təfəkkür məhdudluğundan qurtardı. Bu, böyük və inqilabi bir nailiyyət idi. Məsələ ondan ibarətdir ki, xalq hərəkatı dalğası üzərində siyasətə atılanlar bir tərəfdən, köhnə kommunist nomenklaturasının Kremldən asılı olan qrupları, digər tərəfdən, Azərbaycanda siyasi təfəkkürü məhdud məhəlli çərçivəyə salaraq ondan çıxmasına ciddi maneələr törədən qüvvələri təmsil edirdi. Cəmiyyət ifrat milliyətçiliklə imperiyapərəstlik arasında sıxışdırılıb qalmışdı. Azərbaycanı həqiqi mənada müstəqil edə biləcək və "qızıl orta xətti" təşkil edəcək siyasi təfəkkürün formalaşdırılması həyati tələbata çevrilmişdi. Bunu isə yalnız konkret praktiki addımlarla etmək mümkün idi.

Heydər Əliyev daxildəki radikal qrupları zərərsizləşdirməklə məsələnin bir qismini həll etdi. Bir neçə il siyasət meydanında at oynadanlar artıq arxa plana keçmişdi və xalq onları lider kimi qəbul etmirdi. Lakin Ulu Öndər çox gözəl başa düşürdü ki, bu, işin bir qismidir. Ona görə də paralel olaraq siyasi mühitdə ciddi islahatlar aparırdı. Onu üç aspektdə bir-biri ilə uyğunlaşdıraraq həyata keçirirdi - sosial-siyasi sabitlik yaradır, Dağlıq Qarabağ münaqişəsini beynəlxalq aləmə çıxarır və neft strategiyasını dövlət quruculuğuna təkan verən faktora çevirirdi.

Sosial-siyasi sabitlik cəmiyyətin siyasi təfəkküründə nizam-intizam yaradırdı. Ona belə bir inam aşılayırdı ki, azərbaycanlılar öz ölkəsində siyasi sabitlik yarada bilərlər. Bu proses günbəgün daha geniş vüsət alırdı. Ermənistanın Azərbaycana təcavüzünün BMT-də müzakirə edilməsi isə dünyaya bu münaqişənin əsl simasını anlatmağa geniş imkanlar yaradırdı. Heydər Əliyev böyük ustalıqla ermənilərin əsl niyyətlərini bütün dünyaya göstərdi. Ancaq Ulu Öndər bununla kifayətlənmirdi. Heydər Əliyev 1994-cü və 1995-ci illərdə BMT Baş Assambleyasının yüksək tribunasından Azərbaycanda müstəqil dövlət quruculuğunun konseptual parametrlərini dəqiqliklə geniş auditoriyaya çatdırdı.

Ümummilli Lider BMT-dəki nitqlərində Azərbaycanın xarici siyasətinin prioritetlərini ifadə etdi, müstəqil dövlətimizin strateji məqsədlərini açıqladı və bütövlükdə qlobal geosiyasəti necə təsəvvür etdiyini lakonik şəkildə bəyan etdi.

Ulu Öndər Azərbaycanın xarici siyasətinin qayəsinin sülh, əməkdaşlıq və barış olduğunu yüksək tribunadan bəyan etdi. Bu, təcavüzə məruz qalmış bir dövlətin sivil, demokratik mahiyyətindən və vətəndaş cəmiyyətinin formalaşdırılmasının başlıca məqsədlərdən biri kimi tanınmasından xəbər verirdi. Dünya bunu gördü və qəbul etdi.

Heydər Əliyev BMT-dəki çıxışlarında dünya siyasətinin trendlərini çox gözəl təhlil edərək, onlarda məzmun dəyişikliyinin aparılması zərurətini qətiyyətlə vurğulayırdı. O cümlədən böyük dövlətlərin üzərinə dünya nizamını qorumaq kimi müqəddəs bir vəzifənin düşdüyünü xüsusi vurğulayırdı. Ulu Öndər İkinci Dünya müharibəsindən sonra formalaşmış beynəlxalq münasibətlər sisteminin ciddi islahatlara ehtiyacı olduğunu açıq bildirirdi. Bu bağlılıqda Ümummilli Lider BMT Təhlükəsizlik Şurasında köklü islahatların aparılması zərurətini vurğulayırdı. Ulu Öndər bütün dünya dövlətlərini barış, əməkdaşlıq və sülhə dəvət edir, Azərbaycanın xarici siyasətində bu məqamların əsas yer tutduğunu qeyd edirdi. Bütün bunlar aydın göstərirdi ki, Azərbaycan siyasi təfəkkürü məhdud məhəlli dairəni çoxdan tərk edib və qlobal miqyasda dünyəvi dövlətçiliyin formalaşdırılmasının başlıca prinsiplərini çox gözəl təqdim etməkdədir.

Təbii ki, bu, çox ciddi geosiyasi yenilik idi. Təsadüfi deyil ki, sonralar dünyanın bir sıra aparıcı liderləri Heydər Əliyevlə bağlı müəyyən etirafları etdilər. ABŞ-ın sabiq prezidentlərindən olan Bill Klinton deyəcəkdi: "Demokratiya və bazar iqtisadiyyatı yolu ilə gedən müstəqil dövlət kimi Azərbaycanın son illər möhkəmlənməsində, iqtisadi islahatların aparılmasında və bu işdə böyük uğurlar əldə edilməsində Prezident Heydər Əliyevin xidmətlərini yüksək qiymətləndirirəm...

Prezident Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan müstəqillik yolunda qarşılaşdığı çətinliklərin dəf edilməsində böyük müvəffəqiyyətə nail olmuşdur".

Birbaşa Heydər Əliyevə müraciətlə isə ifadə etmişdi: "Cənab Prezident, Siz bizə çox lazımsınız. Qafqazda və Mərkəzi Asiya regionunda sülhün və sabitliyin bərqərar olunmasında Sizin xidmətlərinizi yüksək qiymətləndiririk. Sizin liderliyiniz və güclü qətiyyətiniz sayəsində Xəzərin zəngin ehtiyatlarının dünya bazarlarına alternativ yollarla ixrac olunması region dövlətlərinin müstəqilliyinin möhkəmləndirilməsində əhəmiyyətli rol oynayacaqdır".

səs

www.sesqazeti.az

facebook Ses Media Holding

13 dekabr 2017-ci il

# Heydər Əliyev: dahi xilaskar və dövlət qurucusu



Əvvəli-Səh-5

Fransanın sabiq Prezidenti Jak Şirak da Heydər Əliyevə olan heyranlığını gizlətmirdi: "Bu qeyri-adi şəxsiyyət Azərbaycanı tərəqqi yoluna gətirib çıxarmışdır. Müxtəlif görüşlərimiz zamanı, xüsusilə Dağlıq Qarabağ münaqişəsi ətrafında müzakirələr apararkən münaqişənin sülh yolu ilə həllində onun göstərdiyi cəsarəti, müdrikliyi və qətiyyəti yüksək qiymətləndirdim.

...Azərbaycanın bəxti onda gətirib ki, bu ölkəyə Prezident Heydər Əliyev kimi böyük siyasi iradəyə, zəngin dövlətçilik təcrübəsinə malik, müdrik, uzaqgörən və nüfuzlu dövlət xadimi rəhbərlik edir".

ABŞ-ın keçmiş prezidentlərindən olan Corc Buş isə açıq demişdi: "Dünyada tanınmış görkəmli dövlət xadimi Heydər Əliyevin şəksiz liderliyinə, cəsarətinə, misilsiz dünyagörüşünə və nadir natiqlik istedadına valehəm".

Üçüncüsü, Heydər Əliyev milli ideyanı iflasdan qurtardı. Milli ideya hər bir cəmiyyət üçün mayakdır, onu gələcəyə aparan əsas qüvvədir. O, yalnız cəmiyyət özünün vahid məqsədini müəyyənləşdirdikdə real məzmun kəsb edir. Milli ideya heç zaman boş yerdə yaranmır. Onun konkret prinsipləri olmalıdır. Heydər Əliyev milli ideyanı konkret ideoloji konseptdə - azərbaycançılıqda ifadə etdi. Azərbaycançılıq ideologiyasına müasir dövlət quruculuğu tələblərinə uyğun yeni məzmun çalarları verdi. Burada vətənsevərlik, vətənpərvərlik və milli dəyərlərin qorunması müasirlik və demokratik cəmiyyətin formalaşması prinsipləri ilə vəhdət təşkil etdi. Bu aspektdə milli ideya ənənə ilə müasirliyin, milli ilə beynəlmiləlin sintezi kimi özünü göstərə bildi. Bütün bunlar isə dövlətçilik şüurunun inkişaf etdirilməsi fonunda konkret məzmun kəsb edə bilər. Heydər Əliyev milli ideyaya XXI əsrin tələblərinə uyğun dövlətçilik şüuru çalarları verməklə sözün həqiqi mənasında inqilabi yenilik edə bildi. Bu baxımdan Heydər Əliyev milli ideyanın həm nəzəri aspektlərini, həm də praktiki reallaşma mexanizmlərini işlədi.

1993-cü ilin birinci yarısına qədər isə milli ideya ciddi təhlükə qarşısında qalmışdı. Cəmiyyətdə dövlətçilik şüuru çox zəif idi və onun inkişaf etdirilməsi üçün heç bir iş görülmürdü. Əksinə, məhdud ideoloji baxışlar cəmiyyəti müxtəlif qruplara parçalamaqda idi. Bu proses davam etsəydi, Azərbaycan cəmiyyətinin bütövləşməsi olduqca çətin bir prosesə çevriləcəkdi. Heydər Əliyev azərbaycançılıqla nəinki cəmiyyətdə deqradasiya prosesinin qarşısını aldı, hətta dövlətçilik şüurunun yeni şəraitə uyğunlaşdırılması istiqamətində ciddi addımlar atdı. Bu bağlılıqda Türkiyənin Baş naziri olmuş, mərhum Bülənd Ecevitin bir fikri çox maraqlıdır. O, ifadə etmişdi: "Qüdrətli öndərsiz bir millət heç nəyə nail ola bilməz. Heydər Əlirza oğlu Atatürk qədər qüdrətli bir türkdür. Heydər Əlirza oğlu min ildən bir yetişən dahilərdəndir". Böyük Britaniyanın sabiq Baş naziri Toni Bleyer isə açıq söyləmişdi: "...Son beş ildə Azərbaycanda hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu sahəsində Prezident Heydər Əliyevin müdrik rəhbərliyi ilə görülən işlər Britaniya hökuməti tərəfindən diqqətlə izlənilir və alqışlanır".

Yeni demokratik Avrasiya quruculuğu: Heydər Əliyev imzası

Məşhur qırğız yazıçısı Çingiz Aytmatovun Ulu Öndər haqqında dedikləri də diqqəti çəkir: "Heydər Əliyev həqiqətən də tarixi, hətta əfsanəvi bir şəxsiyyətdir... Heydər Əliyev onun yaşıdlarının və hətta ondan cavan olan bir çox siyasi xadimin bacarmadığı xüsusiyyəti - müasir dövrün ən aktual çağırışlarına hazır olmağı nümayiş etdirə bilmişdir. Məhz Heydər Əliyevin zəngin siyasi təcrübəsinin və humanitar dünyagörüşünün genişliyi nəticəsində indi Azərbaycanda sabitlik, tolerantlıq, mədəniyyət, maarifçilik hökm sürməkdədir. Bütün bunlar isə Azərbaycan dövlətinin müasir inkişafını və tərəqqisini təmin edəcək əsas amillərdir... Heydər Əlirza oğlu XX əsrin ən böyük liderlərindədir. O, müasir demokratik Avrasiyanın yeni tarixinin bugünkü qurucularından biridir".

Bu fikirlərdə aydın şəkildə göstərilib ki, Heydər Əliyev tarixi və əfsanəvi bir şəxsiyyət kimi müasir dövrün ən aktual çağırışlarına hazır olub. O cümlədən cəmiyyətin ideoloji cəhətdən hazırlanmasını təşkil edə bilib. Nəticədə, Azərbaycanda başqa yeniliklərlə yanaşı, mədəniyyət və maarifçilik də tərəqqi edib. Daha geniş miqyasda isə Heydər Əliyev demokratik Avrasiyanın yeni tarixinin qurucularından biridir.

Sonuncu məqam Heydər Əliyev şəxsiyyətinin bütün dünya üçün əhəmiyyətini əks etdirir. Avrasiya kimi geniş və ziddiyyətli bir məkanda yeni tarixin yaradıcılarından olmaq böyük qüdrət tələb edir. Heydər Əliyev həyata keçirdiyi siyasətlə bunu yüksək səviyyədə dünyana nümayiş etdirib. Həmin bağlılıqda Ulu Öndərin Bakı-Tbilisi-Ceyhan neft boru xəttinin çəkilişində göstərdiyi müdrikliyi, təmkini, qətiyyəti və aktivliyi ayrıca vurğulamaq lazımdır. Hələ həmin qanlı-qadalı illərdə Ümummilli Lider daim vurğulayırdı ki, Bakı-Ceyhan layihəsi bütövlükdə Avrasiyanın geosiyasi dinamikasını dəyişəcək. Bu layihə geniş bir məkanda inkişafa, əməkdaşlığa və qarşılıqlı faydalı əlaqələrin yeni səviyyəyə yüksəlməsinə xüsusi töhfə verəcək. O cümlədən təhlükəsizlik sahəsində keyfiyyət dəyişikliyi edəcək. Təcrübə Ulu Öndərin tam haqlı olduğunu təsdiq etdi. İndi Azərbaycan bir neçə əhəmiyyətli beynəlxalq enerji, nəqliyyat layihələrinin təşəbbüskarıdır. "Şərq-Qərb" və "Şimal-Cənub" dəhlizlərinin reallaşdırılmasının fəal üzvüdür, "Yeni İpək Yolu" layihəsində aktiv iştirakçıdır. Bunlar məcmu halında Avrasiyanın geosiyasi xəritəsində ciddi dəyişikliklərə təkan verməkdədir. Bu barədə dünyanın aparıcı siyasi liderləri dəfələrlə fikir bildiriblər. Bugünkü mövqeyə gəlib çıxmaqda Ulu Öndərin qlobal miqyasda irəli sürdüyü əməkdaşlıq prinsipləri həlledici rol oynayıb.

Beləliklə, Heydər Əliyevin milli qurtuluş fəlsəfəsinin əsas prinsipləri bütövlükdə dövlətimizi yeni inkişaf səviyyəsinə çıxarmış, onu mühüm geosiyasi oyunçuya çevirmişdir. Təbii ki, bu prosesdə Heydər Əliyevin xarici siyasət kursu ciddi rol oynamışdır. Bu bağlılıqda Rumıniyanın sabiq Prezidenti Emil Konstantineskunun bir fikrini xatırlamaq tam yerinə düşərdi. O ifadə etmişdi: "...Zənnimcə, Heydər Əliyev dünya siyasətində çox mühüm rol oynamışdır və oynayacaqdır. Bu gün mən onun daha bir keyfiyyətini - bir sıra nəsillər üçün nəzərdə tutulmuş mühüm layihələrə qoşulan böyük dövlət xadimi keyfiyyətini kəşf etdim. Mən müəyyən dərəcədə tarixi fürsət olan İpək Yolunu nəzərdə tuturam. Ən başlıcası, öz xalqından istifadə etmək deyil, əksinə, öz xalqına xidmət etməkdir". Bu sözlərdə birbaşa Heydər Əliyevin xarici siyasət kursunun yüksək səmərəliliyi əksini tapıb. Ulu Öndər böyük ustalıqla Azərbaycanın milli maraqlarını xarici siyasətin hər məqamında ifadə edir və həmişə müsbət nəticəyə nail olurdu.

Xarici siyasət strategiyasının üç aspekti: mükəmməl kurs

Mütəxəssislər Ümummilli Liderin xarici siyasət strategiyasının uğurunu üç faktorla izah edirlər. Birincisi, Heydər Əliyev dövrün çağırışlarına cavab verən xarici siyasi strategiyanı müəyyən etdi. Məsələ ondan ibarətdir ki, keçən əsrin 90-cı illəri ümumən qlobal siyasətdə müxtəlif ziddiyyətli məqamlarla xarakterizə olunurdu. Sosialist düşərgəsinin dağılması ilə geosiyasi mənzərənin sadələşəcəyinə və liberalizmin tam qələbə çalacağına ümid edənlərin gözləntiləri özünü doğrultmadı. Meydana daha mürəkkəb problemlər çıxdı. Onların sırasında müstəqilliyini əldə etmiş dövlətlərin suverenliyini, ərazi bütövlüyünü qorumasını və beynəlxalq münasibətlər sistemində həqiqi yerini müəyyənləşdirməsini qeyd etmək olar. Məhz belə bir şəraitdə Ulu Öndər Azərbaycanın xarici siyasətini qlobal geosiyasi reallıqları diqqətə alaraq müəyyənləşdirdi.

İkincisi, bu kurs ölkəmizi əhatə edən geosiyasi reallığı dəqiqliklə nəzərə alırdı. Regionda baş verən proseslər və böyük dövlətlərin onda iştirakı olduqca mürəkkəb vəziyyət yaratmışdı. Azərbaycanın bu reallıqları nəzərə alaraq hərəkət etməsi lazım idi. İlk növbədə regionun nüfuzlu dövlətləri olan Rusiya, Türkiyə və İran istiqamətində səmərəli və obyektiv reallığı nəzərə alan kurs müəyyənləşdirilməli idi. Bunların fonunda Dağlıq Qarabağla bağlı süni olaraq yaradılmış münaqişənin xarici siyasət kursundakı yeri və rolu təyin edilməli idi. Həmin faktorları Heydər Əliyev böyük ustalıqla diqqətə aldı və onları zamanın tələblərinə uyğunlaşdırdı.

Üçüncüsü, Ulu Öndər xarici siyasət strategiyasını hazırlayarkən xalqımızın zəngin dövlətçilik tarixinin başlıca məqamlarını zərgər dəqiqliyi ilə nəzərə ala bildi. Bu, müasir mərhələdə xarici siyasətdə olduqca mühüm məqamı əks etdirir. Belə ki, bu, milli dövlət quruculuğunun geosiyasi dinamika ilə bağlı əlaqələrinin məzmununu təşkil edir. Həmin səbəbdən Azərbaycan xalqının dövlətçilik tarixindən nəticələr çıxarmaqla xarici siyasət kursunun prinsiplərinin müasir şəraitə uyğunlaşdırılması strateji əhəmiyyət daşıyır. Bununla da müasir Azərbaycan dövlətçiliyi tarixində xarici siyasətin mükəmməl konsepsiyasının başlıca prinsiplərinin formalaşdırılması imkanı meydana gəldi. Həmin kontekstdə Heydər Əliyevin xarici siyasət strategiyasında bir sıra faktorları baza prinsiplər olaraq müəyyən etməsi vurğulanmalıdır. Onlar aşağıdakılardan ibarətdir.

Hər şeydən əvvəl, Ulu Öndər ölkəmizin təbii-coğrafi şəraitini, geosiyasi amilləri və yerləşdiyimiz ərazinin geostrateji əhəmiyyətini xarici siyasət kursunun əsas faktorları sırasına daxil etdi. Digər prinsip tarixi reallıq və ondan çıxarılan nəticələrlə bağlı idi. Növbəti faktor olaraq tarazlaşdırılmış və çoxqütblü xarici siyasət zərurətini qeyd etmək gərəkdir. Sonra, Ulu Öndər Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü və ərazimizin 20 faizinin işğalı faktını incəliklə xarici siyasət kursunun məzmununa daxil etdi.

Ardı Səh. 7

# Heydər Əliyev: dahi xilaskar və dövlət qurucusu

Əvvəli-Səh-6

Bu kontekstə başqa bir vacib faktoru - erməni lobbi dairələrinin ölkəmizə qarşı apardığı düşmənçilik və qarayaxma siyasətinə qarşı sistemli mübarizə xəttinin də xarici siyasətdə yerini tapmasına nail oldu.

Növbəti çox əhəmiyyətli məqam ölkəmizin zəngin enerji resurslarına və nəqliyyat-logistika imkanlarına malik olmasının xarici siyasət strategiyasının mərkəzi punktlarından biri statusuna gətirilməsi ilə əlaqəlidir. Bu məsələ yalnız Azərbaycanın diplomatiya tarixində deyil, ümumiyyətlə, bütün dünya üçün əhəmiyyətli olan incə siyasətlə bağlıdır. Dünyanın aparıcı ölkələrinin siyasi liderləri həmin məqamı daim vurğulayırlar. Bu bağlılıqda Bill Klintonun Heydər Əliyevə xitabən dediklərinin bir fraqmentini xatırlamağa dəyər. ABŞ-ın sabiq Prezidenti ifadə etmişdi: “Sizin liderliyiniz və güclü qətiyyətiniz sayəsində Xəzərin zəngin ehtiyatlarının dünya bazarlarına alternativ yollarla ixrac olunması region dövlətlərinin müstəqilliyinin möhkəmləndirilməsində əhəmiyyətli rol oynayacaqdır”. Təcrübə bu tezisin doğruluğunu tam təsdiqləmişdir.

Digər məqam xarici siyasətdə müasir tələblər səviyyəsində Azərbaycanın insan resursları və iqtisadi potensialının dəqiqliklə nəzərə alınması ilə əlaqəlidir. İndiki mərhələdə bu reallığın nəzərə alınmaması müstəqillik və suverenlik üçün ciddi təhlükədir. Bunu Ukrayna və Gürcüstanın timsalında aydın görmək mümkündür. Azərbaycan isə Ümummilli Liderin uzaqgörənliyi sayəsində həmin ziddiyyətləri yaşamadı. Ölkənin insan resursları və iqtisadi potensialı uğurla xarici siyasət kursunda istifadə edildi və bu proses indi də uğurla davam etdirilir.

Nəhayət, xarici siyasət strategiyasında xalqımızın zəngin tarixi, mədəniyyəti və multikultural ənənələri lazımi səviyyədə diqqətə alındı. Heydər Əliyev bütün dövrlərdə Azərbaycan xalqının tarixi, mədəni və multikultural ənənələrinə daim diqqət və qayğı göstərib. Hələ sovet dönəmində yüksək vəzifələrdə çalışarkən bu məqama ayrıca önəm verib. Deyək ki, SSRİ zamanında milli kadrların yetişdirilməsi xətti ilə yanaşı, Azərbaycanın böyük ədibləri, mədəniyyət xadimləri, milli bayramları, dili ilə bağlı çox əhəmiyyətli addımlar atırdı. Məhz bu kimi faktorların sayəsində Azərbaycan öz milli-mədəni varlığını qoruya bildi. Müstəqillik mərhələsində isə həmin faktorlar tamamilə yeni məzmunda xarici siyasət kursunun prinsipləri sırasına daxil edildi. Heydər Əliyevin siyasət dahisi olmasının əsas göstəricilərindən biri məhz bununla bağlıdır. Bu baxımdan bir müddət ziddiyyətli münasibətlərimiz olmuş İranın sabiq Prezidenti Seyid Məhəmməd Xatəminin Ulu Öndər haqqında dedikləri ibrətamizdir. O, vurğulamışdı: “Heydər Əliyev yenicə ayağa qalxan Azərbaycan Respublikasının sabitlik və tərəqqiyə qovuşmasında təsirli rol oynamış, gözəl Azərbaycan xalqının rifahı, asayişi naminə səy göstərmiş təcrübəli və məşhur siyasət xadimi olmuşdur. Cənab Heydər Əliyevin regional sülh və dostluğa nail olması, iki dost, qardaş ölkə olan İran İslam Respublikası ilə Azərbaycan Respublikası arasında əlaqələrin dərinləşdirilməsi yolunda xidmətləri heç vaxt xatirələrdən silinməyəcəkdir”. Buradan aydın görünür ki, Heydər Əliyev böyük ustalıqla Azərbaycan xalqının milli-mədəni özünəməxsusluğu ilə regional miqyasda sülh və əmin-amanlığın təmin edilməsi arasında uğurlu əlaqə yarada bilmişdi.

Təbii ki, Heydər Əliyevin xarici siyasət kursundan bəhs edərkən bu böyük şəxsiyyətin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi istiqamətində atdığı addımları vurğulamamaq mümkün deyildir. Müasir müstəqillik tarixində ilk dəfə olaraq Heydər Əliyev bu məsələni konseptual formada Azərbaycanın xarici siyasət kursunun prioritet məsələləri sırasına daxil etdi. Bu, mövcud geosiyasi reallıqlar kontekstində asan məsələ deyildi. Çünki bir tərəfdən qlobal geosiyasətin özü müxtəlif problemlərlə üzləşmişdi. Böyük dövlətlər xüsusi maraqlarını daha üstün tutaraq ədalət hissini tamamilə itirmişdilər. Digər tərəfdən isə təcavüzkar Ermənistanı havadarları aktiv şəkildə müdafiə edirdilər və bu, indi də davam etməkdədir.

Belə mürəkkəb şəraitdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin incəliklə xarici siyasət kursuna mühüm faktor kimi daxil edilməsi böyük diplomatik ustalıq tələb edirdi. Heydər Əliyev onun ən səmərəli üsulunu tapa bildi. Nəticədə, beynəlxalq təşkilatlar sürətlə həqiqəti öyrəndi, müxtəlif sənədlərdə Ermənistanın təcavüzkarlığı vurğulandı, regionun böyük dövlətləri Azərbaycanın ərazi bütövlüyünü tanıdıqlarını bəyan etdilər, BMT erməni təcavüzünə son qoyulması ilə bağlı dörd qətnamə qəbul etdi və ATƏT münaqişəni sülh yolu ilə həll etmək üçün xüsusi qrup (ATƏT-in Minsk qrupu) yaratdı. Çoxillik gərgin fəaliyyət Ermənistanın təcavüzkarlığını bütün dünyaya nümayiş etdirməyə imkan yaratdı. Prezident İlham Əliyev sonrakı mərhələdə bu istiqamətdə dalbadal uğurlu addımlar ataraq, Ermənistanın küncə sıxışdırılması prosesini yeni səviyyəyə yüksəltdi. Artıq ATƏT-in Minsk qrupunun həmsədr dövlətləri Dağlıq Qarabağın mövcud statusunun dəyişilməz qalmasının mümkün olmadığını bəyan edirlər. Bu o deməkdir ki, münaqişə yalnız Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi şərti ilə öz ədalətli həllini tapa bilər.

Bunlardan başqa, Heydər Əliyevin xarici siyasət strategiyasında yeni demokratik Avrasiya quruculuğu aspekti “Böyük İpək Yolu” layihəsinə verdiyi önəmdə də ifadə olunmaqdadır. Hələ keçən əsrin 90-cı illərinin ortalarında postsovet məkanında liberalizmin dəbdə olduğu bir zamanda Heydər Əliyev Çinə səfər etdi. O vaxt bu səfərin strateji əhəmiyyətini çox az adam anlaya bildi. Lakin təcrübə göstərdi ki, Ulu Öndər olduqca uzaqgörən addım atıb. Belə ki, Çin coğrafi olaraq Azərbaycandan uzaq olsa da, geosiyasi olaraq çox yaxındır və yeni Avrasiyanın inşasında Pekin faktorunu nəzərə almadan heç bir iş görmək mümkün deyildir. İndi bütün dünya ağızdolusu Çinin təşəbbüskarı olduğu “Bir Qurşaq, Bir Yol” qlobal layihəsinin perspektivindən danışır. Yüzlərlə ölkənin bu layihəyə qoşulmaq istəyi haqqında informasiyalar yayılır. Hətta Ermənistan belə bundan yararlanmağa çalışır. Ancaq faktdır ki, keçən əsrin 90-cı illərində bu günü görənləri barmaqla saymaq olardı. Onların önündə Azərbaycanın lideri Heydər Əliyev gedirdi. Onun əsasını qoyduğu Çin siyasəti özünün bəhrəsini yüksək səviyyədə verməkdədir. Xarici siyasətin digər prioritetləri ilə birgə Çin siyasəti Azərbaycanı Cənubi Qafqazın geosiyasi “düyün nöqtəsi” statusuna qədər yüksəldib. Hazırda ölkəmiz “Şərq-Qərb” və “Şimal-Cənub” dəhlizlərinin qovuşma məkanı, “Yeni İpək Yolu” layihəsinin fəal iştirakçısı və bir neçə əhəmiyyətli enerji layihələrinin təşəbbüskarıdır. TAP, TANAP, “Cənub Qaz Dəhlizi” və başqa layihələr qlobal enerji təhlükəsizliyinin mərkəzi bəndlərini təşkil edir. Nəqliyyat layihələri isə ümumiyyətlə, geosiyasi əhəmiyyətli hadisələrdəndir.

Azərbaycan faktiki olaraq xarici siyasətin bütün istiqamətlərində uğur qazanan və onları bir-biri ilə uyğunlaşdıra bilən perspektivli dövlətdir. Ölkəyə etibarlı tərəfdaş kimi yanaşırlar. Buraya xarici iş adamları külli miqdarda sərmayə yatırmaqdan çəkinmirlər. Azərbaycan bütün sahələr üzrə Cənubi Qafqazın lider dövlətinə çevrilib. Və həmin irəliləyişim memarı Ulu Öndər Heydər Əliyevdir.

Beləliklə, Heydər Əliyevin Azərbaycana, regiona və dünyaya ciddi töhfələr verdiyi hamılıqla tanınan faktdır. Onun dövlət quruculuğu kursunu Prezident İlham Əliyev böyük uğurla inkişaf etdirir. Ümumiyyətlə, Ulu Öndərin əvəzsiz xidmətlərindən biri də Azərbaycan xalqının gələcək tərəqqisini təmin edən İlham Əliyev kimi böyük siyasət xadimini yetişdirməsi idi. Bu, əslində, Heydər Əliyevin Vətən sevgisindən, siyasi peşəkarlığından, milli dəyərlərə ciddi bağlılığından qaynaqlanır. Yəni Ulu öndər müstəqil Azərbaycan naminə yalnız yaşadığı dövrü deyil, gələcəyi də düşünüb! Buna görə də Ulu Öndər ümummilli lider kimi həmişəyaşardır, xalqın qəlbində, dövlətin bütün istiqamətlər üzrə aparılan uğurlu siyasətinin ruhundadır.

## Dimitri Kerkentzes: “Azərbaycan “Expo-2025” üçün yeni və çox maraqlı bir məkandır”




***Bakıya səfərim çərçivəsində Azərbaycan üçün “Expo-2025” layihəsinin çox böyük önəm daşıdığının və bu istiqamətdə ciddi hazırlıq işlərinin aparıldığının şahidi oldum. Həmçinin Bakının bu istiqamətdə gördüyü işlər və atacağı addımlarla yaxından tanış olmaq imkanı qazandım. Azərbaycan Ümumdünya “Expo-2025” Sərgisi üçün yeni və çox maraqlı bir məkandır.***

AZƏRTAC xəbər verir ki, bu sözləri “Expo-2025” Ümumdünya Sərgisinə ev sahibliyi etmək üçün namizədliyi irəli sürülən Bakının bu layihəyə hazırlıq prosesi ilə yaxından tanış olmaq məqsədilə Azərbaycana səfər edən Beynəlxalq Sərgilər Bürosunun baş katibinin müavini Dimitri Kerkentzes jurnalistlərə müsahibəsində deyib.

Səfər çərçivəsində “Bakı Expo-2025”ə məsul olan bir sıra rəsmilərlə, o cümlədən biznes, gənclər, könüllülər və digər sahələrə cavabdeh olan şəxslərlə görüşdüyünü deyən D.Kerkentzes vurğulayıb ki, Bakı ev sahibliyi uğrunda mübarizədə var gücü ilə çalışır.

Beynəlxalq Sərgilər Bürosunun baş katibinin müavini qeyd edib ki, mart-aprel aylarında Büronun qiymətləndirmə missiyasının hazırlıq prosesi ilə yaxından tanış olmaq üçün Bakıya səfəri gözlənilir. Qiymətləndirmə missiyası təkcə Azərbaycan üçün deyil, “Expo-2025”ə ev sahibliyi etmək üçün namizədliyi irəli sürülən digər üç ölkə - Fransa, Rusiya və Yaponiya üçün böyük əhəmiyyət daşıyır. 2018-ci ilin noyabr ayında Beynəlxalq Sərgilər Bürosunda qalib şəhərin adı müəyyənləşəcək.

D.Kerkentzes deyib ki, Beynəlxalq Sərgilər Bürosu üçün Bakının namizədliyi sadəcə olaraq şəhər namizədliyi deyil, həm də şəhər sakinlərinin, eyni zamanda, gənclərin bu layihəyə marağının nümayişidir. Bu layihənin əsas istiqamətlərindən biri də gənclərdir. Hər bir sərginin həyata keçirilməsində gənclərin müstəsna rolu olub. Düşünürük ki, növbəti sərginin keçirilməsində inkişaf baxımından gənclərin böyük rolu olacaq.

Baş katibin müavini bildirib ki, qiymətləndirmə missiyasının səfəri çərçivəsində bir sıra önəmli məqamlar var. Əsas məqam ondan ibarətdir ki, Bakı Büronun missiyası ilə görüşə nə təqdim edəcək, hazırlığını necə nümayiş etdirəcək? Bakı Beynəlxalq Sərgilər Bürosuna üzv olan 176 ölkəni necə inandıracaq ki, həqiqətən o, Ümumdünya Sərgisinin keçirilməsinə layiqli şəhərdir? Həmçinin qiymətləndirmə missiyasına təqdim edilməli olan məqamlardan biri də xalq ilə dövlətin birliyidir. Bu, “Expo”ya bərabər arzunun nümayişidir.

Dimitri Kerkentzes deyib ki, bu mübarizəyə ilk dəfə qoşulan Azərbaycan özünəməxsus zəngin təbiəti, mədəniyyəti, qədim tarixi, Avropa ilə Asiya arasında böyük İpək Yolunun üstündə yerləşməsi, dini tolerantlığı ilə “Expo” ailəsi üçün kifayət qədər cəlbedici ölkədir.

Beynəlxalq Sərgilər Bürosunun baş katibinin müavini Dimitri Kerkentzes jurnalistlərlə görüşdən sonra “Bakı Expo-2025”in “Arzular kitabı”na ürək sözlərini yazdı.

# ƏBƏDİ VƏ ÖLMƏZ HEYDƏR ƏLİYEV DÜHASI



***Hər bir tarixi şəxsiyyətin öz xalqı və bəşəriyyət üçün tarixi izləri mövcuddur. Bu şəxsiyyətlərin işlətdikləri hər bir kəlam sonradan öz əhəmiyyəti və mühümlüyü ilə yeni tarixlərin yazılmasına xidmət edir. "Xalq dövlət üçün yox, dövlət xalq üçün olmalıdır". Məhz bu tarixi kəlam Azərbaycan xalqının Ulu Öndəri Heydər Əliyevə məxsusdur! Bütün fəaliyyəti ilə xalqa, Azərbaycan dövlətinə bağlı olan Dahi Öndərimiz bu qızıl sözlərini öz əməli ilə həyata keçirdi və bu gün də həmin kəlamlar yaşadılmaqda, müasir Azərbaycanın inkişafında rol almaqda davam edir...***

### Bu xilas olmasaydı, müstəqil Azərbaycan da olmayacaqdı

Ümumiyyətlə, Azərbaycanın bugünkü regional və beynəlxalq mövqeyini izləyərkən, araşdırarkən, bizlər bir daha keşməkeşli tarixi hadisələri incələyərək, bir çox mühüm amillərə əsaslanırıq. Belə ki, ötən əsrin 90-cı illərinin əvvəllərində Azərbaycan bir çox təhlükələr qarşısında qalanda, Ulu Öndər Heydər Əliyevin xalqın təkidli tələbi, sosial sifarişi ilə rəhbərliyə qayıdışı ölkədə köklü dəyişikliklərin baş verməsinə səbəb oldu. Ulu Öndər ölkəmizin inkişaf strategiyasını müəyyən etdi, inkişafın və tərəqqinin Azərbaycan modelini yaratdı. Əslində, bu strategiya hələ uzun illər öncədən müəyyənləşdirilmişdi. Qalırdı zamanını, vaxtını gözləmək... Uzaqgörən Lider bu zamandan tam vaxtında istifadə edərək, Azərbaycan xalqının xilasını reallaşdırdı. Bu xilas olmasaydı, müstəqil Azərbaycan da olmayacaqdı... Beləliklə, sarsılmaz əqidəyə, möhkəm iradəyə malik, qətiyyətli, yenilməz və müdrik bir İnsan olan Heydər Əliyevin zəngin həyatını, siyasi irsini və s. bu kimi faktorlarını araşdırdıqca, bizlər bir daha müəyyən edirik ki, Onun Azərbaycan üçün atdığı hər bir tarixi addım bizlərə əvəzedilməz bir nümunədir. Çünki Dahi Öndər Heydər Əliyev dühası rəhbərlik etdiyi dövr ərzində daim tərəqqisi üçün çalışdığı, zəngin mədəniyyəti, böyük tarixi keçmişi ilə həmişə qürur duyduğu və gələcək nəsillərin taleyi üçün düşündüyü doğma yurdu Azərbaycanı bir dövlət kimi zamanın ağır və sərt sınaqlarından çıxarıb.



Bəhruz QULİYEV,
"Səs" qəzetinin
baş redaktoru

### Yeni şəraitdə milli və dövlət quruculuğu ideyalarına uyğun olan daha etibarlı dəyərlər bazası və kollektiv özünüdərk zərurəti yarandı

Məhz Ulu Öndər Heydər Əliyevin rəhbərliyi sayəsində Azərbaycan cəmiyyəti 1990-cı illərin əvvəllərinin xaos və özbaşınalığını arxada qoyaraq, özündə yeni inkişaf ideologiyası ilə ifadə oluna biləcək dəyərlərə can atmaq həvəsi hiss etdi. Yeni şəraitdə milli və dövlət quruculuğu ideyalarına uyğun olan daha etibarlı dəyərlər bazası və kollektiv özünüdərk zərurəti yarandı. Ona görə də bu gün Heydər Əliyev tarixindən danışarkən, mülahizələr irəli sürərkən, bu gerçəklik vurğulanır - XX əsrin sonu Azərbaycan xalqının həyatında taleyüklü bir dövrdür. Tarixin bu dövründə baş verən hadisələr dahi şəxsiyyəti - Heydər Əliyevi siyasi səhnəyə gətirdi! Yeri gəlmişkən, politoloji nöqteyi-nəzərdən yanaşarsaq, qeyd edə bilərik ki, dünya siyasi tarixində baş verən hadisələrin mürəkkəbliyi, bir quruluşa malik dövlətlərin məhvi, digərlərinin yaranması baxımından, XX əsrin sonları heç bir dövrlə müqayisə edilə bilməz. Azərbaycan bu dövr kəsişməsində çox böyük ağrı-acılardan üzüağ çıxdı. Çünki Azərbaycan istər bu, istərsə də daha öncəki tarixi dövrlərdə mövcud olduğu coğrafiyası, zəngin təbiəti, Şərq və Qərb arasında ortaq-sintez sivilizasiya missiyası ilə dünyanın diqqət mərkəzində olub. Düşünsək ki, belə bir mahiyyətə malik ölkəni ölümün, məhvin caynağından xilas etmək heç bir siyasi şəxsiyyətə nəsib olmur, bəlkə də yanılarıq. Ona görə ki, Allah Azərbaycan xalqına fövqəl İnsan, Lider ərməğan etmişdi və belə bir dövlətin lideri olmaq Ulu Öndər Heydər Əliyev Şəxsiyyətinə yazıldı. İqtisadiyyat, sənaye, hərbi, mədəniyyət, təhsil, mətbuat və digər sahələrin hər birinin bugünkü tərəqqisinin təməlində, bilavasitə Heydər Əliyev izi, Heydər Əliyev nəfəsi duyulmaqdadır. Belə ki, ölkənin həyatında çox zəruri olan ictimai-siyasi sabitləşməyə nail olunduqdan sonra demokratik prinsiplərin və təsisatların yaradılması və təkmilləşdirilməsi, dövlət aparatının möhkəmləndirilməsi və iş qabiliyyətli dövlət idarəçilik təsisatlarının formalaşdırılması, cəmiyyətdə yeni davranış norma və stereotiplərinin yaradılması, yeni - açıq və demokratik vətəndaşlığın formalaşdırılması, qanunvericilik bazasının təkmilləşdirilməsi, həyat qabiliyyətli tarazlı xarici siyasət modelinin yaradılması istiqamətində əməli işlərə başlanıldı. Bütün bunlar Heydər Əliyev müdrikliyi əsasında hazırlanmış əvəzsiz konsepsiyanın tərkib hissələri idi. Həmçinin, Heydər Əliyevin balanslaşdırılmış xarici siyasəti sayəsində Azərbaycan dünyanın siyasi xəritəsində geostrateji mövqeyini möhkəmləndirməyə başladı, ölkəmiz Cənubi Qafqazın lokomotiv dövlətinə çevrilməyə yön aldı. Ulu Öndərin çoxsaylı xarici səfərləri, ikitərəfli və beynəlxalq səviyyədə imzalanmış mühüm saziş və sənədlər, beynəlxalq və regional təşkilatlarla aparılan gərgin iş ölkəmizin inkişafının sürətləndirilməsinə mühüm töhfəsini verməyə başladı.

### İqtisadi sosial-inkişafın möhkəm əsasları

Ulu Öndər Heydər Əliyevin ilkin səyləri nəticəsində, bütün sahələrdə olduğu kimi, ölkəmizin iqtisadi həyatında da taleyüklü dəyişikliklərin əsası qoyuldu. Azərbaycan dövlətini və ölkə iqtisadiyyatını labüd fəlakətdən, hərc-mərclikdən xilas edən Heydər Əliyev ölkənin iqtisadi yüksəlişi üçün təcili tədbirlər görməyə başladı. Ümummilli Liderin rəhbərliyi ilə, qısa müddət ərzində, ölkədə bazar iqtisadiyyatının formalaşması məqsədilə qanunvericilik bazası yaradıldı, məqsədli dövlət proqramları qəbul edildi, institusional islahatlar aparıldı, mülkiyyət münasibətlərində köklü dəyişikliklər edilməsi üçün müvafiq addımlar atıldı. Dahi siyasətçi Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş strategiyanın əsasını iqtisadiyyatın inkişafına, mövcud resurslardan səmərəli istifadəyə, dünya iqtisadiyyatına inteqrasiyaya və nəticə etibarilə vətəndaşların rifah halının yüksəldilməsinə hesablanan sosialyönümlü bazar iqtisadiyyatının yaradılması təşkil edirdi. Nəticədə, iqtisadi sahədə islahatların ardıcıl və sistemli şəkildə həyata keçirilməsi məqsədilə Ulu Öndər beynəlxalq tələblərə uyğun qanunvericilik bazasının yaradılmasını təmin etdi. Azərbaycanın o zamankı məhdud imkanlarını nəzərə alan Ulu Öndərimiz iqtisadiyyatda ciddi dönüşə nail olmaq üçün respublikanın malik olduğu zəngin karbohidrogen ehtiyatlarından səmərəli istifadəni vacib hesab edirdi. Ulu Öndər Heydər Əliyev neft və qaz hasilatının artımına ölkənin qarşıdakı iqtisadi və sosial çətinliklərinin aradan qaldırılmasında əsas vasitələrdən biri kimi baxırdı. Belə bir şəraitdə maliyyə vəsaitinin məhdudluğu xarici şirkətlərin və investorların cəlb olunmasını strateji zərurətə çevirmişdi. Heydər Əliyevin hakimiyyətə qayıdışından dərhal sonra xarici investorlarla neft müqavilələri üzrə fəal danışıqlara başlandı və çətin danışıqlar prosesindən sonra Azərbaycanın maraqlarına tamamilə cavab verən müqavilə şərtləri əldə edildi.

# ƏBƏDİ VƏ ÖLMƏZ HEYDƏR ƏLİYEV DÜHASI

## Müstəqil Azərbaycanın müstəqil mətbuatı Heydər Əliyevin adı ilə bağlıdır

Onu da qeyd etmək istərdim ki, məhz Ümummilli Lider Heydər Əliyevin ölkə mətbuatı üçün gördüyü böyük işlərin nəticəsidir ki, bu gün müstəqil mediamız dünyanın siyasi arealında Azərbaycanda görülən nəhəng işləri beynəlxalq medianın diqqətinə çatdırmaqdadır. Biz, müasir media tariximizi də araşdırarkən, Onun bu istiqamətdə atdığı hər bir addımın bugünkü dövrümüzə nə qədər əhəmiyyətli dərəcədə təsir etdiyini vurğulaya bilərik. Çünki Azərbaycanın çətin dövrlərində ölkə jurnalistikası da məhv olmaq təhlükəsi ilə qarşı-qarşıya dayanmışdı. Unutmaq olmaz ki, mətbuatın inkişafına mane olmaq, azad sözü boğmaq üçün 1992-ci ildə yaradılan hərbi senzura yazılı mətbuatın vəziyyətini daha da ağırlaşdırdı. Milli maraqları maddiyə satanlar qorxurdular ki, onların əleyhinə hər hansı bir informasiyanın, əslində isə, həqiqətin xalqa çatdırılması onların siyasi iflasına gətirib çıxaracaq. 1993-cü ilin aprel ayında senzuranın tətbiqinin miqyasının genişləndirilməsi və bütün informasiya yayımını əhatə etməsi haqqında verilən Sərəncam məlumat azadlığını, jurnalistlərin sərbəst məlumat əldə etmək və yaymaqla bağlı peşə fəaliyyətini ciddi şəkildə məhdudlaşdırırdı. Bu problemlər və bu dəhşətli çətinliklər Azərbaycan mətbuatının bərbad hala düşməsinə gətirib çıxarmışdı. Amma hər qaranlıq gecənin bir işıqlı səhəri olduğu kimi, Azərbaycanın da bu çətinliklərdən və böhrandan xilas olduğu gün gəlib çatdı...

## Ulu Öndər Heydər Əliyev Azərbaycan jurnalistikasının inkişafında hər zaman xüsusi yeri olan Şəxsiyyətlərdəndir







Bu işıqlı yolun başlanğıcını qoyan Heydər Əliyev mətbuat orqanlarının azad fəaliyyətinə şərait yaratdı, qanunvericilik bazasının təkmilləşdirilməsi istiqamətində görülən tədbirlər ölkədə fikir plüralizminin genişləndirilməsinə yol açdı. Müstəqil kütləvi informasiya vasitələrinin təsis edilməsi milli mətbuat ənənəsinin davam etdirilməsinə zəmin yaratmış oldu. O da əbəs deyil ki, Ümummilli Liderimiz Heydər Əliyevin rəhbərliyi ilə hazırlanan Konstitusiyada da mətbuata verilən qiymət öz əksini tapdı: "Demokratiyanın, siyasi plüralizmin və vətəndaş cəmiyyətinin əsas atributlarından hesab olunan söz və məlumat azadlığının başlıca daşıyıcıları kütləvi informasiya vasitələridir". Bəli, 1998-ci ildə imzalanan "Azərbaycan Respublikasında söz, fikir və məlumat azadlığının təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında" Fərman ölkə mətbuatının inkişaf tarixində mühüm hadisə kimi qiymətləndirilir. Bu Fərman kütləvi informasiya vasitələrinin sərbəst inkişafı, onların cəmiyyətin dinamik şəkildə demokratikləşməsinə təsir edən qüdrətli vasitəyə çevrilməsi yolunda dövlət siyasətinin həyata keçirilməsində mühüm addım sayıldı. Məhz bu Fərmanla Mətbuatda və digər Kütləvi İnformasiya Vasitələrində Dövlət Sirlərini Mühafizə edən Baş İdarə ləğv edildi, hərbi senzura yaradılması haqqında 16 aprel 1992-ci il tarixli Fərman və bütün informasiya yayımı üzərində nəzarət tətbiq edilməsi ilə bağlı 15 aprel 1993-cü il tarixli Sərəncam qüvvədən düşdü. 1999-cu ilin sonunda qəbul olunan "Kütləvi informasiya vasitələri haqqında" yeni qanun mətbuatda demokratik prinsiplərin daha da möhkəmləndirilməsinə xidmət etdi. Bu sənəd Azərbaycanda mətbuatın inkişafına mane olan bir sıra bürokratik əngəllərin aradan qaldırılmasına yol açdı. Dövlət qeydiyyatı ləğv olundu və yeni mətbuat orqanlarının təsis olunması prosedurası asanlaşdırıldı. Ancaq bu da son deyildi... Belə ki, Ulu Öndər Heydər Əliyevin mətbuatın inkişafı ilə bağlı tədbirləri davamlı şəkil aldı. 2000-ci ilin martında imzalanan mühüm Sərəncam ilə "2000-2001-ci illərdə kütləvi informasiya vasitələrinin maddi-texniki şəraitinin yaxşılaşdırılması üzrə tədbirlər Proqramı" təsdiq olundu, Mətbuat və İnformasiya Nazirliyi ləğv edildi, Milli Mətbuat, Teleradio və İnternet Şurası yaradıldı. Ona görə də, daim vurğulanır ki, Ulu Öndər Heydər Əliyev Azərbaycan jurnalistikasının inkişafında hər zaman xüsusi yeri olan Şəxsiyyətlərdəndir. Heydər Əliyev bir sıra qəzetlərin "Azərbaycan" nəşriyyatına olan borclarını dondurmaqla və sonradan bu borcları ləğv etməklə, iqtisadi böhranın girdabında boğulan mətbu vasitələri xilas etdi.

## Dahi Şəxsiyyət Heydər Əliyev istər Azərbaycanın, istərsə də dünyanın siyasi mühitinə LİDERLİK simvolu olaraq həkk olundu

Bundan başqa, Ulu Öndərimiz cəmiyyətdə jurnalistlərə münasibətin formalaşmasında mühüm rol oynadı. Şəxsi təşəbbüsləri ilə jurnalistlərlə, qəzetlərin baş redaktorları ilə keçirdiyi görüşlər Heydər Əliyevi mətbuatın problemləri ilə daha yaxından tanış etdi. Bütün ölkə jurnalistləri Onu ölkə başçısı kimi olmaqla yanaşı, həm də bir dost, onların zəhmətinə qiymət verən yaxın sirdaş kimi qəbul edirdi. Bunun nəticəsi idi ki, 2002-ci ildə Ümummilli Liderimiz Heydər Əliyev "Jurnalistlərin dostu" adına layiq görüldü. 2001-ci ildə kütləvi informasiya vasitələrinin rəhbərləri ilə görüşən Ulu Öndər Heydər Əliyev bu tarixi kəlamlarını vurğulamışdı: "Biz mətbuat haqqında bir neçə ciddi addım atmışıq: söz azadlığının, mətbuat azadlığının təmin olunması, senzuranın aradan qaldırılması, bütün mətbuat orqanlarına sərbəstlik verilməsi. Əgər bu gün hansısa yeni bir şey varsa, biz onu edirik və edəcəyik".

Beləliklə, əsası Ümummilli Liderimiz Heydər Əliyev tərəfindən qoyulan müstəqil Azərbaycan və onun inkişaf strategiyası bütün sahələri əks etdirməklə, milli mətbuatımızın da strateji hədəflərini müəyyən etmiş oldu. Uzaqgörənliyi və müdrikliyi ilə xalqı, Vətəni və dövləti üçün çalışan, bu yolda əməyini əsirgəməyən Dahi Şəxsiyyət Heydər Əliyev istər Azərbaycanın, istərsə də dünyanın siyasi mühitinə LİDERLİK simvolu olaraq həkk olundu. Müstəqil Azərbaycanın dövlətçilik tarixinin ən parlaq səhifəsi Ulu Öndər Heydər Əliyev tərəfindən yazıldı. Heydər Əliyev bugünkü və gələcək nəsillər üçün müstəqil, çiçəklənən bir dövləti - müstəqil Azərbaycanı miras qoydu. Bu gün Dahi Öndərimiz aramızda olmasa da, Onun yaratdığı dövlətçilik fəlsəfəsi hər gün bizimlə qoşa, hətta bizdən öndə addımlayır, yaşayır, yaşadılır. Çünki Vətənini, dövlətini sevən hər bir azərbaycanlının qəlbinin ən dərin və qızğın bir guşəsində Heydər Əliyev adlı Düha yaşayır, əbədi və ölməz Heydər Əliyev Dühası...

# Adı tarixin əbədiyyət səhifəsinə yazılmış Lider!

## *Pirallahı rayonunda Ulu Öndər Heydər Əliyevin anım günü ilə əlaqədar tədbir keçirilib*

***Dünən Pirallahı rayon icra hakimiyyəti və YAP Pirallahı rayon təşkilatının birgə təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin anım günü ilə əlaqədar tədbir keçirilib. Tədbirdə Pirallahı rayon icra hakimiyyətinin başçısı Vasif İmanov, Milli Məclisin Əmək və Sosial Siyasət Komitəsinin sədr müavini Rauf Əliyev, YAP Siyasi Şurasının üzvü, Milli Məclisin deputatı Aydın Mirzəzadə, "Yeni Azərbaycan" qəzetinin baş redaktoru, Milli Məclisin deputatı Hikmət Babaoğlu, Milli Məclisin deputatı Elman Nəsirov, YAP Siyasi Şurasının üzvü, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə, "Səs" qəzetinin baş redaktoru Bəhruz Quliyev, YAP Pirallahı rayon təşkilatının sədri Hikmət Şikarov və rayon ictimaiyyətinin nümayəndələri iştirak ediblər.***





Əvvəlcə Ulu Öndərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Daha sonra Ümummilli Lider Heydər Əliyevə həsr olunmuş film nümayiş olunub.

Tədbirdə çıxış edən Pirallahı rayon icra hakimiyyətinin başçısı Vasif İmanov bildirib ki, Azərbaycanın xal-



qının görkəmli oğlu Heydər Əliyev bütün həyatını Vətənimizin inkişafına həsr edib. Sovetlər hakimiyyəti dövründə respublikamızın dirçəlişi istiqamətində gördüyü işlərdən danışan V.İmanov qeyd edib ki, həmin dövrlərdə görülən işlər Azərbaycanı müstəqilliyə doğru aparırdı: "Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra ağır çətinliklərlə üz-üzə qalmışdı. Ulu Öndər 1993-cü ilin iyun ayında ölkənin ağır günündə xalqın təkidli dəvətini qəbul edib paytaxta qayıtmaqla daxili və xarici düşmənlərimizin bütün planlarını iflasa uğratdı. Xilaskarlıq missiyasını öz üzərinə götürən böyük şəxsiyyət Bakıya gələrək, bütün çətinlikləri dəf etdi. Ulu Öndər Heydər Əliyevin xalqımızın və tariximizin qarşısında ən böyük xidmətləri kəskin geosiyasi ziddiyyətlərin mövcud olduğu bir şəraitdə Azərbaycan dövlətçiliyini xilas etməsində, Azərbaycanı parçalanıb yox olmaq təhlükəsindən qurtarmaqda idi. Ulu Öndər Azərbaycanı çox sevirdi və böyük azərbaycançılıq ideyasını belə ifadə edirdi: "Hər bir millət öz milli mənsubiyyəti ilə qürur duyur. Mən hər zaman fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam". Bu ifadə Onun əməllərində də özünü daim göstərirdi. Heydər Əliyevin siyasətdə, iqtisadiyyatda və mədəniyyətdə qoyduğu izlər heç vaxt silinməyəcək". Rayon icra hakimiyyətinin başçısı bu gün Prezident İlham Əliyev tərəfindən Heydər Əliyev siyasətinin uğurla davam etdirildiyini vurğulayıb. Bu gün respublikamızın bütün bölgələrinin simasının əhəmiyyətli dərəcədə dəyişdiyini deyən V.İmanov dövlət başçısının diqqət və qayğısı nəticəsində, Pirallahı rayonunda da böyük quruculuq işlərinin həyata keçirildiyini qeyd edib.

Tədbirdə çıxış edən Milli Məclisin deputatı Elman Nəsirov Ümummilli Lider Heydər Əliyevin xalqımız və dövlətimiz qarşısında misilsiz xidmətlərindən bəhs edib və bildirib ki, Ulu Öndərimiz Azərbaycanın inkişaf strategiyasının müəllifidir. Millət vəkili qeyd edib ki, bu gün Azərbaycan xalqı unudulmaz rəhbərin xoşbəxt gələcəyimiz üçün açdığı yolla qətiyyətlə addımlayır və Ümummilli Liderimizin qurub-yaratdığı azad, müstəqil, demokratik Azərbaycan Onun müəyyən etdiyi strateji xətlə inamla getməkdə, inkişafını davam etdirməkdədir: "Bu xətti əzmlə irəli aparan isə Ulu Öndərin layiqli siyasi varisi, praqmatik dövlət xadimi Prezident İlham Əliyevdir"-deyən E.Nəsirov söyləyib ki, müstəqil dövlətimizə beynəlxalq səviyyədə verilən bugünkü yüksək qiymət Ulu Öndər Heydər Əliyevin təməlini qoyduğu düzgün siyasətin təntənəsidir". "Azərbaycanın parlaq sabahı da bu siyasətə bağlıdır. Azərbaycanın hazırkı inkişafı, məhz Qurtuluş Günü ilə başlayıb. Həmin siyasət bu gün Prezident İlham Əliyev tərəfindən böyük uğurla davam etdirilir və bu gün Azərbaycan xalqı öz liderinin ətrafında sıx birləşib. Dövlətimiz günü-gündən güclənir və qüdrətlənir"-deyə E.Nəsirov vurğulayıb.

Daha sonra məktəblilərin ifasında Ulu Öndər Heydər Əliyevə həsr olunmuş ədəbi-bədii kompozisiya təqdim olunub. Tədbirdə, həmçinin, Ümummilli liderimizin ruhuna dualar oxunub və ehsan verilib.

***Rövşən NURƏDDİNOĞLU***

## Bakıda Azərbaycanın, İranın və Türkiyənin xarici işlər nazirlərinin görüşü keçiriləcək

Dekabrın 20-də Bakıda Azərbaycanın, İranın və Türkiyənin xarici işlər nazirlərinin görüşü keçiriləcək. AZƏRTAC xəbər verir ki, görüşdə üçtərəfli əməkdaşlıq əlaqələrinin inkişaf perspektivləri müzakirə ediləcək.

## "Ermənilər başa düşüblər ki, "talış kartı" Azərbaycanın əleyhinə işləməyəcək"

"Talış separatizmi Azərbaycandan kənarda mövcuddur. Dövlətin apardığı siyasət nəticəsində ölkə daxilində bu məsələ ilə bağlı heç bir problem yoxdur". Bu fikirləri politoloq Mübariz Əhmədoğlu bəzi talış əsilli şəxslərin Rusiyada anti-Azərbaycan fəaliyyətini şərh edərkən deyib. Politoloqun sözlərinə görə bir qrup şəxs var ki, onlar xəstə düşüncənin daşıyıcısıdır: "Həmin şəxslər elə başa düşür ki, İranla Rusiya Azərbaycanın düşmənidir və ermənilərlə birləşib Rusiya ilə İranı Azərbaycanın əleyhinə qaldıra biləcəklər. Bu şəxslər anlamır ki, Rusiya və İran Azərbaycan prezidentinin təşəbbüsü ilə iki sammit keçirib, Avrasiya materikinin mahiyyətini dəyişən geostrateji nəqliyyat-kommunikasiya layihələri reallaşdırırlar".

Politoloq deyib ki, digər tərəfdən də kimlərsə həmin qüvvələri provokasiyaya təhrik edir: "Ermənistanın daxilində başa düşüblər ki, talış kartı Azərbaycanın əleyhinə işləməyəcək. Rusiyanın daxilində başa düşürlər ki, Rusiya cəmiyyətində Azərbaycanın nüfuzu getdikcə artır. Buna görə də ermənipərəst qüvvələr Rusiya-Azərbaycan münasibətlərinə zərbə vurmaq üçün həmin adamları ortaya atıblar".

M.Əhmədoğlu bildirib ki, həmin qüvvələrdən İsmayıl Şabanov adlı bir şəxs son dövrlərdə mətbuatda aktivdir. Politoloq əlavə edib ki, belə ki, İrandakı talışların sayı Azərbaycandakından azı 3 dəfə çoxdur. Lakin İranda bir dənə də olsun talış dilini tədris edən məktəb, mətbu orqan yoxdur. Azərbaycan radiosunda isə bütün etnik qrupların dilində veriliş hazırlanır. Politoloqun fikrincə, separatçılıq etmək istəyən qüvvələrin qarşısına kimsə, ya da özləri məqsəd qoyub ki, Azərbaycanı şərləsinlər. O sonda deyib ki, bütün bunlara baxmayaraq bizim millət monolitdir və heç kəs Azərbaycanda milli-etnik zəmində münaqişə sala bilməyəcək.

## Həştərxan vilayəti qubernatorunun Bakıya səfəri gözlənilir

Gələn həftə Həştərxan vilayətinin qubernatoru Aleksandr Jilkinin Bakıya səfəri gözlənilir. AZƏRTAC Həştərxan vilayət administrasiyasının rəsmi saytına istinadla bildirir ki, qubernator Bakıda 2018-ci ildə görüləcək işlərlə bağlı bir sıra təkliflər irəli sürəcək. Aleksandr Jilkin deyib: "2017-ci ildə fəal inkişaf etməkdə olan "Lotos" xüsusi iqtisadi zonasında xarici biznesin ilk nümayəndələri məhz azərbaycanlı sərmayədarlar olublar. Azərbaycanın "ATEF" şirkətlər qrupu həmin zonada elektrotexniki avadanlıq istehsal edən zavod tikintisinə başlayıb. Layihəyə 1,1 milyard rubldan artıq sərmayə qoyulması nəzərdə tutulur".

Aleksandr Jilkin xarici tərəfdaşlarla aparılan danışıqlar barədə söhbət açaraq, "Şimal-Cənub" nəqliyyat dəhlizi layihəsinin Rusiya ilə yanaşı əsas iştirakçıları olan Hindistan və İran nümayəndələri ilə əlaqələri xüsusi vurğulayıb. Həştərxan qubernatoru qeyd edib ki, bəzi problemlərə baxmayaraq bu nəqliyyat arteriyası ilə yükdaşımaların həcmi artmaqdadır.

## Noyabr ayında nikaha daxil olmaq istəyən 10,7 min nəfər tibbi müayinədən keçib

Artıq iki il yarımdır ki, ailə qurmaq istəyən cütlüklər nikahdan əvvəl tibbi müayinələrdən keçirlər. 2015-ci il iyunun 1-dən başlanılan nikaha daxil olmaq istəyən şəxslərin icbari tibbi müayinə prosesi uğurla tətbiq edilir. Səhiyyə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, bu ilin noyabrında nikaha daxil olmaq istəyən 10,7 min nəfər tibbi müayinədən keçib.

"Ötən ay müayinədən keçənlərdən 325 nəfərində talassemiya daşıyıcılığı, 18 nəfərdə sifilis, 11 nəfərdə isə QİÇS aşkarlanıb. Müayinələr nəticəsində hər ikisində talassemiya daşıyıcılığı olan 38 cütlük aşkar olunub", - deyə B. Eyvazov adına Elmi-Tədqiqat Hematologiya və Transfuziologiya İnstitutunun direktoru Zöhrə Əlimirzəyeva bildirib. 2017-ci il ərzində 23 hamilə qadında perenatal müayinə aparılıb. Müayinələr zamanı onların dünyaya gətirdiyi 6 körpə talassemiya xəstəsi, 13-ü daşıyıcı, 4-ü isə sağlam doğulub.

# "Heydər Əliyev və azərbaycançılıq məfkurəsi"

*Bu mövzuda Suraxanı rayonunda tədbir keçirilib*






***Suraxanı rayonu Heydər Əliyev Mərkəzi, Azərbaycan Respublikasının Ağsaqqallar Şurası, Suraxanı rayon icra hakimiyyəti və YAP Suraxanı rayon təşkilatının birgə təşkilatçılığı ilə Azərbaycan xalqının Ümummilli Lideri, Ulu Öndər Heydər Əliyevi Anım günü münasibəti ilə "Heydər Əliyev və Azərbaycançılıq məfkurəsi" adlı tədbir keçirilib.***

Tədbir iştirakçıları öncə Ümummilli Liderin Heydər Əliyev Parkında ucalan abidəsini ziyarət edib. Sonra tədbir iştirakçıları Suraxanı rayonu Heydər Əliyev Mərkəzi ilə tanış olub və Ümummilli Liderin xatirəsinə həsr olunmuş Poçt markalarına və kitab sərgisinə baxıblar.

Rayon icra hakimiyyətinin akt zalında Ümummilli Lider Heydər Əliyevə həsr olunmuş "Millət Atası" filmi nümayiş olunub. Anım tədbiri Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlanıb. Ulu Öndər Heydər Əliyevin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbiri giriş sözü ilə açan rayon icra hakimiyyətinin başçısı İlqar Abbasov qeyd edib ki, tədbirin Respublika Ağsaqqallar Şurası ilə birgə keçirilməsi təsadüfi deyildir: "Azərbaycanda ağsaqqal sözü həmişə uca tutulub. Ulu Öndər Heydər Əliyevin hakimiyyəti illərində ağsaqqallar daim yanında olmuşdur. Öz həyatını, bütövlüklə xalqına, Vətəninə həsr edən Böyük Azərbaycanlı, Azərbaycan xalqının Ümummilli Lideri, Ulu Öndər Heydər Əliyev həsəd aparılacaq bir ömür yaşadı. Ötən zaman kəsiyi göstərdi ki, Ulu Öndərin həlledici bir məqamda hakimiyyətə gəlişi, Azərbaycanın müasir tarixinin şərəfli səhifələrinin yazılmasına və ölkəmizin müstəqilliyinin daimi yaşamasına zəmin yaratdı. Ümummilli Liderin əbədiyyətə qovuşmasından 14 il keçir. Bu günlər respublikamızın hər yerində Ulu Öndər Heydər Əliyevin əziz xatirəsi bir daha anılır".

Tədbirdə Azərbaycan Respublikası Ağsaqqallar Şurasının sədri, millət vəkili Fəttah Heydərov çıxış edərək, bildirib ki, Ulu Öndər Heydər Əliyev bir Şəxsiyyət kimi yüksək insani keyfiyyətlərə malik idi: "Ulu Öndər Heydər Əliyevdə müqəddəs ideyalar, əməllər ətrafında insanları ətrafına yığmaq, öz arxasınca aparmaq qabiliyyəti var idi. Ulu Öndər Heydər Əliyev ilk baxışda Onunla təmasda, ünsiyyətdə olan insanları inandırır və onları doğru yola, düz yola istiqamətləndirməyi bacarırdı. Xalqa arxalanan, xalqı hər zaman öz arxasında görən, qəlbində Azərbaycan insanına məhəbbət olan rəhbər həmişə qalib olur".

Tədbirdə Azərbaycan Respublikası Ağsaqqallar Şurası sədrinin müavini, tarix elmləri doktoru, akademik Teymur Bünyadov, Azərbaycan Respublikası Ağsaqqallar Şurası sədrinin müavini, tibb elmləri doktoru, AMEA-nın müxbir üzvü Sudeyif İmamverdiyev və YAP Suraxanı rayon təşkilatının sədri Vüqar Seyidov çıxış ediblər.

Sonda Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin zəngin irsinin təbliğində və Suraxanı rayonunun ictimai həyatında fəal iştirak etdiyinə görə, Azərbaycan Respublikasının Ağsaqqallar Şurası rayon icra hakimiyyəti başçısının Fəxri Fərmanı ilə təltif edilib və məktəblilərin ifasında ədəbi-bədii kompozisiya nümayiş etdirilib.

***ZÜMRÜD BAYRAMOVA***

# Sədaqət Vəliyeva: "Ulu Öndər uzun illər boyu Azərbaycan xalqına yol göstərəcək və fayda verəcək qiymətli irs yaradıb"

"Ümummilli Lider Heydər Əliyevin böyük səyləri, Vətənə və xalqa məhəbbəti, təşkilatçılıq qabiliyyəti, mövcud problemləri dərindən öyrənərək, onların aradan qaldırılmasını təmin etmək bacarığı bütün dövrlərdə bəhrəsini verib". Bunu Yeni Azərbaycan Partiyası Nizami rayon təşkilatının sədri, Milli Məclisin deputatı Sədaqət Vəliyeva bildirib. Onun sözlərinə görə, Ulu Öndər Heydər Əliyevin bilik və bacarığı, gərgin əməyi sayəsində bir zamanlar keçmiş Sovetlər İttifaqının geridə qalmış aqrar respublikası olan Azərbaycan sənaye və kənd təsərrüfatının geniş inkişaf etdiyi qabaqcıl bir respublikaya çevrilmişdi: "Respublikada yüzlərlə iri sənaye müəssisəsi, sosial obyektlər inşa edilmiş, əhalinin yaşayış şəraitinin yaxşılaşdırılması üçün genişmiqyaslı mənzil tikintisi layihələri həyata keçirilmişdi. Bu, deməyə əsas verir ki, Ulu Öndər Heydər Əliyevin ilk dəfə siyasi hakimiyyətə gəlişi Azərbaycanda milli intibahın başlanğıc tarixi olmuşdu".

Sədaqət Vəliyeva bildirib ki, Ümummilli Liderin 1993-cü ildə siyasi hakimiyyətə qayıdışından sonra Onun rəhbərliyi altında ölkəmiz 1993-2003-cü illərdə də özünün möhtəşəm müstəqil dövlət quruculuğu salnaməsini yaratmışdı: "Ulu Öndər Azərbaycana birinci rəhbərliyi dövründə respublikamızda yaratdığı sosial-iqtisadi potensialı müstəqil Azərbaycan dövlətinin dirçəlməsi naminə uğurla istifadə edib. Azərbaycan Heydər Əliyevin liderliyində Qurtuluş mübarizəsini qalibiyyətlə başa vuraraq müasir, hüquqi, demokratik və dünyəvi dövlət quruculuğunun inkişafından hüquqi-siyasi, sosial-iqtisadi və elmi-mədəni inkişaf dövrünə qədəm qoyub. Ulu Öndərin hakimiyyəti dövründə respublikamızın ictimai, siyasi, iqtisadi, mədəni və mənəvi tərəqqisində misilsiz nailiyyətlər qazanılıb, bütün varlığı ilə Vətəninə, xalqına bağlı olan Heydər Əliyev uzun illər boyu Azərbaycan xalqına yol göstərəcək və fayda verəcək qiymətli irs yaradıb. Ümummilli Lider bu gün aparıcı dünya dövlətlərinin hesablaşdığı Azərbaycan Respublikasının hərtərəfli inkişafının əsasını qoyub. Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu siyasət isə, bu gün onun layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir".



***GÜLYANƏ***

## Gənc Sahibkarlar Məktəbi artıq bitmək üzrədir...



Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondunun maliyyə dəstəyi "Gənclərin İntellektual İnkişafına Yardım" İ.B. tərəfindən "Gənc Sahibkarlar Məktəbi" layihəsini əsas təlim və görüşləri başa çatıb. Layihə çərçivəsində noyabr ayının 26-sı tarixində layihənin ən böyük tədbiri keçirilib. Layihənin əsas məqsədi gənclərdə sahibkarlıq vərdişlərinin inkişafı, sahibkarlığa marağın artırılması və gənclərin məşğulluq fəaliyyətinin gücləndirilməsidir. Həmçinin də layihədə ekspert kimi dəvət olunan qonaqlar da əsasən gənc sahibkarlar idi. Sahibkarlar öz təcrübələrini paylaşmaqla bərabər iştirakçıların da suallarını cavablandırıblar. Gənc Sahibkarlar Məktəbi daha 2 həftə davam edib və müxtəlif ekspertlər çıxışlar ediblər. Region gəncləri üçün belə layihə çox məhsuldar və effektivdir. Xatırladaq ki, Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondunun dəstəyi ilə, bu tipli layihələr "Gənclərin İntellektual İnkişafına Yardım" İ.B. tərəfindən 2 il öncə də gənclər üçün də təşkil olunub.

# Ulu Öndər Heydər Əliyevin əziz xatirəsi bölgələrdə böyük ehtiramla yad edilib

## NAFTALAN



Naftalan şəhərində Ulu Öndər Heydər Əliyevin vəfatının 14-cü ildönümü ilə bağlı anım tədbiri keçirilib. Əvvəlcə tədbir iştirakçıları Ulu Öndərin abidəsi önünə gül dəstələri düzüblər.

Sonra Ümummilli Liderin əziz xatirəsi bir dəqiqəlik sükutla və böyük ehtiramla yad edilib.

Heydər Əliyev Mərkəzində davam etdirilən tədbiri giriş sözü ilə açan YAP Naftalan şəhər təşkilatının sədri Hatəm Qocayev bildirib ki, bu gün Azərbaycan tarixində misilsiz xidmətləri ilə əbədiyaşar mövqe qazanmış Ulu Öndər Heydər Əliyevin əziz xatirəsi təkcə Azərbaycanda deyil, ölkəmizin hüdudlarından kənarda soydaşlarımız tərəfindən böyük ehtiramla yad olunur: "Ulu Öndər Heydər Əliyev Azərbaycan xalqının yaddaşında qurucu və xilaskar Dövlət Xadimi, Milli Lider və xalq məhəbbətini qazanan tarixi Şəxsiyyət kimi qalmışdır. Xalqımızın tarixi taleyində, mənəvi, siyasi və ictimai həyatında və dövlət quruculuğunda Onun qədər misilsiz xidmətlər göstərən ikinci dövlət adamı tapmaq mümkün deyildir. Bu mənada, o, xalqımızın milli iftixarı, ürəklərimizdə özünə yer tapan Milli Liderimiz, güvənc yerimiz, qürur duyduğumuz və arxa bildiyimiz Böyük Azərbaycanlı idi".

H.Qocayev Ulu Öndər Heydər Əliyevin əməllərinin həmişəyaşar olduğunu və hər zaman Ulu Öndərin xatirəsinin xalqımız tərəfindən qürur və etiramla yad ediləcəyini bildirib.

Tədbirdə "Heydər Əliyev və Azərbaycan" mövzusunda çıxış edən şəhər icra hakimiyyəti başçısı Natiq Aslanov bildirib ki, 12 dekabr 2003-cü ildən etibarən bu tarix azərbaycanlılar üçün tamamilə yeni mahiyyət və məna kəsb edir:"Məhz həmin tarixdə dünya siyasətinin azərbaycanlı Dahisi Heydər Əlirza oğlu Əliyev cismən canından artıq sevdiyi Vətənindən və xalqından ayrıldı. Həmin tarix Ümummilli Liderin Anım Günü kimi yaddaşlara yazıldı. Seçilmişlər, dünyanın nizamı pozulanda, haqq-ədalət ayaqlar altında tapdalananda gəlirlər. Ötən əsrin sonunda biz belə bir tarixi dövr yaşadıq. Parçalanmaq və dağılmaq ərəfəsində olan Azərbaycan dövlətini və tarixin sərt sınaqları qarşısında qalan xalqımızı xilas edən Ümummilli Lider Heydər Əliyev ölkəmizin sabit və dinamik tərəqqisi üçün möhkəm təməl yaratdı. Bu gün Ulu Öndərimizin siyasi kursunu uğurla davam etdirən Prezident İlham Əliyev Azərbaycanı daha da inkişaf etdirməklə beynəlxalq münasibətlər sisteminin ən fəal aktoruna və sosial rifah dövlətinə çevirib".

Tədbirin rəsmi hissəsi başa çatdıqdan sonra məktəblilərin ifasında "Həmişəyaşar Dahi" adlı kompozisiya nümayiş olundu.

## AĞDAM



Dünən Azərbaycan xalqının Ümummilli Lideri, Yeni Azərbaycan Partiyasının yaradıcısı Ulu Öndər Heydər Əliyevin Anım Günü ilə əlaqədar Yeni Azərbaycan Partiyası Ağdam rayon təşkilatı rayon icra hakimiyyəti ilə birgə geniş təbdir keçirib.

Tədbirdə rayonun idarə, müəsissə rəhbərləri, rayon ictimaiyyəti və partiyanın fəal üzvləri Ulu Öndər Heydər Əliyevin abidəsi önünə tər çiçək dəstələri düzərək, böyük ehtiramla Ulu Öndərin xatirəsini yad ediblər.

Sonra tədbir iştirakçıları Heydər Əliyev Mərkəzi ilə tanış olublar.

## QUBA




Ümummilli Lider Heydər Əliyevin vəfatının 14-cü ildönümü ilə əlaqədar Quba rayon icra hakimiyyəti və Yeni Azərbaycan Partiyası Quba rayon təşkilatının birgə təşəbbüsü ilə Heydər Əliyev Mərkəzində "Mən ömrümün qalan hissəsini də xalqıma bağışlayıram" mövzusunda elmi-praktik konfrans keçirilib. Konfrans iştirakçıları əvvəlcə Ulu Öndərin xatirəsinə həsr olunmuş sərgi ilə tanış olublar. Sonra Ulu Öndər Heydər Əliyevə həsr olunmuş sənədli film nümayiş olunub. Daha sonra Dahi Şəxsiyyət Heydər Əliyevin xatirəsi bir dəqiqəlik sükutla yad olunub.



Konfransı giriş sözü ilə açan rayon icra hakimiyyətinin başçısı Ziyəddin Əliyev bildirib ki, bu gün xalqımız ölməz tarixi şəxsiyyət, dünya miqyaslı siyasətçi, müdrik dövlət xadimi, müstəqil Azərbaycan Respublikasının memarı və qurucusu Heydər Əliyevin vəfatının 14-cü ildönümünü dərin hüznlə qeyd edir. Z.Əliyev bildirib ki, Heydər Əliyev bütün şərəfli və mənalı ömrünü xalqımızın xoşbəxt gələcəyinə həsr etmişdir: "XX əsrin sonlarında respublikamız öz müstəqilliyinə qovuşduğu zaman xalqımız bir sıra ağır problemlərlə üz-üzə qaldı. Müstəqilliyimizin itirilməsi təhlükəsi yarandı. Belə ağır və olduqca çətin bir zamanda xalqımıza nicat yolunu Heydər Əliyevdə gördü.

Tədbirdə çıxış edən YAP Quba rayon təşkilatının sədri Yusif Abidov "Heydər Əliyevin qurucusu olduğu Yeni Azərbaycan Partiyasının dövlətçilik tarixində rolu", Heydər Əliyev Mərkəzinin direktoru Elza Orucova "Heydər Əliyev və azərbaycançılıq məfkurəsi", I Nügədi kənd 1 saylı tam orta məktəbin direktoru Almas Məmmədova "Heydər Əliyev və Quba", "Şəfəq" qəzetinin baş redaktoru Qəhrəman Qasımov "Heydər Əliyev müstəqil Azərbaycanın qurucusudur" mövzusunda çıxış ediblər. Çıxışçılar Ümummilli Lider Heydər Əliyevin Azərbaycan dövlətçiliyinin bərpasında, qorunub-saxlanılmasında misilsiz xidmətlərdən bəhs edərək, Ümummilli Liderin xalqımızın rifahı naminə həyata keçirdiyi siyasi-iqtisadi islahatlardan söhbət açıblar. Bildirilib ki, Ulu Öndər tərəfindən əsası qoyulmuş strateji inkişaf xətti Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilir. Bu gün hər bir vətəndaşın borcu Ulu Öndərimizin ideyalarına daim sadiq qalmaq, bu ölməz ideyaları yaşatmaq və Ümummilli Liderin siyasi kursunun ən layiqli davamçısı, respublikamızın dinamik inkişafının təminatçısı, Prezident Cənab İlham Əliyevin ətrafında daha sıx birləşməklə, ölkəmizin daha da qüdrətlənməsi naminə var qüvvəsini əsirgəməməkdən ibarətdir.

## TƏRTƏR





Ulu Öndər Heydər Əliyevin Anım Günü ilə əlaqədar YAP Tərtər rayon təşkilatı və rayon icra hakimiyyətinin birgə təşkilatçılığı ilə ümumrayon tədbiri keçirilib.Tədbirdə rayonun idarə, müəssisə və təşkilatlarının, təhsil müəssisələrinin, hüquq-mühafizə orqanlarının rayon ərazisində yerləşən "N" saylı hərbi hissənin nümayəndələri iştirak ediblər.

Tədbir iştirakçıları Heydər Əliyev Mərkəzində Dahi Şəxsiyyətin büstü önünə gül dəstələri düzərək, Ümummilli Lider Heydər Əliyevin əziz xatirəsini bir dəqiqəlik sükutla yad ediblər. Sonra Ulu Öndərin həyat və fəaliyyətini əks etdirən eksponatlarla və fotostendlərlə tanış olublar. Tərtər rayon icra hakimiyyətinin başçısı Müstəqim Məmmədov məruzə ilə çıxış edərək, bildirib ki, müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, dünya şöhrətli siyasi xadim, türk dünyasının böyük oğlu, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin vəfatından 14 il ötür. Bu gün əbədiyaşar Prezidentimizin Fəxri Xiyabandakı məzarı ötən illər ərzində xalqımızın müqəddəs ziyarətgahına və gənclərimizin and yerinə çevrilib. Rayon rəhbəri qeyd edib ki, Azərbaycanın ən yeni tarixinin bütöv bir qərinəsi Heydər Əliyevin adı ilə bağlıdır. 1969-cu ildən başlayaraq, 34 illik bir dövrü əhatə edən Azərbaycanın ən yeni tarixi, ölkəmizin həyatının bütün sahələrində əldə edilmiş möhtəşəm nailiyyətlər Dahi Şəxsiyyətin Heydər Əliyevin müdrik dövlətçilik siyasəti ilə bağlıdır. "Azərbaycan tarixinin Heydər Əliyev mərhələsi" kimi qiymətləndirilən bu dövrdə Ulu Öndərimiz tərəfindən görülən böyük işlərin, Onun həyata keçirdiyi xilaskarlıq və quruculuq missiyalarının məntiqi nəticəsidir ki, bu gün xalqımız demokratik və hüquqi bir dövlətdə yaşamaq imkanı əldə etmiş, xoşbəxt gələcəyi üçün bütün təminatları yaradıb, ən başlıcası isə siyasi və iqtisadi müstəqilliyə nail olub.

Ulu Öndərin uzaqgörən daxili və xarici siyasəti nəticəsində ölkəmiz dünyanın və regionun inkişaf etmiş dövlətinə çevrilib. Artıq Azərbaycan regionun iqtisadi və siyasi mərkəzlərindən biridir. Bu gün respublika Prezidenti Cənab İlham Əliyev Ümummilli Lider Heydər Əliyevin siyasi kursunun ən layiqli davamçısıdır.

Sonra rayon polis şöbəsinin rəisi Rauf Mecidov, rayon prokuroru Şıxəli Alməmmədov bildirib ki, Heydər Əliyev bütün azərbaycanlıların qəlbində özünə yer qazanıb. Azərbaycan xalqı heç vaxt Ümummilli Lideri unutmayacaq, daim Onun xatirəsini əziz tutacaq. Ulu Öndərimiz Heydər Əliyevin olduqca zəngin, şərəfli və mənalı həyatı, Onun titanik fəaliyyəti haqqında nə qədər danışılsa da, bu ölməz tarixi Şəxsiyyətin zəngin irsi tükənməzdir.

Tədbirin sonunda Ümummilli Liderin həyat və fəaliyyətindən bəhs edən film nümayiş etdirilib.

***ZÜMRÜD***

# Ulu Öndər Heydər Əliyev ömrü əbədidir



***Ulu Öndər Heydər Əliyev siyasi fəaliyyəti nəticəsində Azərbaycanın xarici siyasəti yeni xarakter kəsb etmiş və respublikanın dövlət arenasında yeni münasibətlər sisteminə daxil olması başlanmışdır. Müstəqil Azərbaycanın sülhsevər siyasəti beynəlxalq miqyasda tanındı.***

Onun yaşadığı ömür müasir tariximizin canlı səhifəsidir. Ulu Öndər Heydər Əliyevin 30 ildə apardığı siyasəti daim respublikamızın sosial-iqtisadi, mədəni inkişafı üçün yeni imkanlar, yollar axtarmasını xalqın adət-ənənələrinin qorunub- saxlanmasını və daha da zənginləşdirilməsini təmin etməsini, elmə və təhsilə müstəsna fayda göstərməsini səciyyələndirmək mümkündür.

Ulu Öndər Heydər Əliyev elmin və mədəniyyətin inkişafına daha həssaslıqla yanaşırdı. Bir sıra nadir ixtisaslar üzrə milli kadrların yerləşdirilməsi Onun məsləhətinin nəticəsidir. Ulu Öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrdə kənd təsərrüfatı, ağır və yüngül sənaye-maşınqayırma sahəsi durmadan inkişaf edirdi. Azərbaycan mədəniyyətinin, incəsənətinin və ədəbiyyatının inkişafına xüsusi önəm verən Dahi Öndər Heydər Əliyev bu sahənin inkişafı üçün əlindən gələni əsirgəməmişdir. Ulu Öndər Heydər Əliyev dühasının ölkə həyatında gerçəkliyini örgənmək və gəncləri bu ruhda tərbiyə etmək ən vacib məsələlərdən biridir. Çünki Onun həyat yolu, dövlətçilik təcrübəsi, idarəetmə qabiliyyəti və müdrik konsepsiyası böyük bir məktəbdir: İstər ideya -siyasi tərbiyə sahəsində, istərsə də, dövlətçilik təcrübəsində Onun fəaliyyətində öz parlaq əksini taparaq, şəxsiyyətində maddiləşmişdir. Onun ideya siyasi təcrübəsi bu gün dünya siyasi arenasına çıxış üçün zəmin olub. Sənayenin inkişafı, neft kontraktlarının bağlanması istiqamətlərində görülən işlər, ümumilikdə, iqtisadiyyatın durmadan inkişafı ilə bağlı atılan addımlar əmək və iqtisadi tərbiyə üçün əsas meyardır.

Ulu Öndər Heydər Əliyevin 1998-ci il martın 26-da imzaladığı "Azərbaycanın soyqırımı haqqında" Fərmanı tarixin pozulmaz səhifələrini bərpa etməklə yanaşı, həm də Dahi Öndərin doğma xalqının tarixinə və taleyinə necə həssas yanaşmasının ifadəsi idi.

Azərbaycan xalqının fəxri - böyük insan Heydər Əliyevin xidmətləri əvəzsizdir.

Ulu Öndərin şöhrəti Azərbaycanın sərhədlərindən çox-çox uzaqlara yayılmışdır. Dövlət xadiminin və siyasi liderin şöhrəti, ilk növbədə, onun mənsub olduğu xalqı, vətəni qarşısında xidmətləri ilə ölçülür. İllər ötdükcə, böyük şəxsiyyətlərin tarixdəki xidmətləri daha aydın görünür. Ulu Öndər Heydər Əliyevin əbədiyyətə qovuşmasından illər ötdükcə, Onun xalqın rifahı, vətənin möhkəmlənməsi və Azərbaycanın dünya birliyində öz layiqli yerin tutması üçün nə qədər böyük işlər gördüyü daha aydın dərk olunur.

Ölkəmizin perspektivli rəhbəri Möhtərəm Prezidentimiz İlham Əliyev atası Ulu Öndər Heydər Əliyevin siyasi xəttinin layiqli davamçısıdır.

Allah-Taalanın nəzəri daim ölkəmizin Prezidenti İlham Heydər oğlu Əliyevin üstündə olsun!

Azərbaycan xalqının dahi oğlu, dünya şöhrətli siyasətçi, müstəqil Azərbaycan dövlətinin banisi Ulu Öndərimiz Heydər Əliyev ölməzdir. Günəş sönmür, qürub edir.

***Mürsəlova Ofelya Mürsəl qızı***
***Azərbaycan Dövlət Pedaqoji Universitetinin Pedaqogika Kafedrasının baş müəllimi***

# "Hərəyə bir ağac əkək"

## *Yeni Azərbaycan Partiyasının Şəmkir rayon təşkilatı növbəti ağacəkmə aksiyası keçirib*



Dünən Yeni Azərbaycan Partiyasının yaranmasının 25 illik yubileyi ilə əlaqədar YAP Şəmkir rayon təşkilatı "Hərəyə bir ağac əkək" kampaniyası çərçivəsində Şəmkirdə növbəti ağacəkmə aksiyası keçirib. Aksiyada YAP Şəmkir rayon təşkilatının şura üzvləri, qadınlar şurasının və gənclər birliyinin fəalları iştirak ediblər. Rayon ərazisində park və bağlarda, xiyabanlarda və şəhərin mərkəzi küçələri də daxil olmaqla, yeni meyvə ağacları və dekorativ ağaclar əkilib, ərazidə təmizlik işləri aparılıb, ağaclara aqrotexniki qulluq göstərilib.

Ümumilikdə, aksiyalar zamanı 10000-dək ağac əkilmiş, 3000 min də əkilməsi nəzərdə tutulmuşdur.

Ağac əkini kampaniyası 2018-ci ilin mart ayının sonuna qədər davam edəcək.

***R.RƏSULOV***

# "Hərəyə bir ağac əkək"

## *YAP Goranboy rayon təşkilatı növbəti ağacəkmə aksiyası keçirib*



YAP Goranboy rayon təşkilatı Yeni Azərbaycan Partiyasının yaranmasının 25 illik yubileyi ilə əlaqədar olaraq dekabrın 4-dən "Hərəyə bir ağac əkək" kampaniyasına start verdi. Meşə Mühafizəsi və Bərpası Müəssisəsinin xidməti ərazisində meşə fondu torpaqlarında badam cinsində aqrobağ salınması ilə, əlaqədar olaraq 14 hektar sahədə badam ağacının əkininə başlayaraq, dekabrın 10-na kimi 5 min badam tingi əkildi. Bayram əhval-ruhiyyəsi ilə başlayan ağacəkmə kampaniyası davam edir.YAP rayon təşkilatı partiya üzvlərinin sayına görə, 7 min ədəd ağac əkməyi planlaşdırıb. Növbəti mərhələdə 2 min ədəd badam tingi əkiləcəkdir .

***RÖVŞƏN***



# Ağcabədidə "Hərəyə bir ağac əkək" ağacəkmə kampaniyası davam edir

YAP Ağcabədi rayon təşkilatının fəalları Yeni Azərbaycan Partiyasının 25 illik yubileyi münasibətilə "Hərəyə bir ağac əkək" kampaniyası çərçivəsində Ağcabədi Meşə Mühafizəsi və Bərpası Müəssisəsi ilə birlikdə aqrobağların salınması prosesini davam etdirir. Ağcabədi Meşə Mühafizəsi və Bərpası Müəssisəsinin ayırdığı "4 saylı meşəbəylik" ərazisində meyvə ağacları əkilmişdir. İməcilik zamanı 500-dən artıq heyva ağacı, 1950 ədəd nar olmaqla, 2450 ağac əkilmişdir. Qeyd edək ki, ağac əkini kampaniyası martın sonunadək davam edəcək.

***ZÜMRÜD***

# Əli Kərimlinin siyasi fəaliyyəti xəyanət və satqınlıqdan ibarətdir

*Dağıdıcı müxalifətin son mitinq uğursuzluqları uzun müddət unudulmayacaq rüsvayçılıqla, minimum dərəcəsindəki dəstəyinin, ümumiyyətlə, yoxa çıxması ilə nəticələndi. Hər dəfə, təqribən min nəfərə qədər adamın yığışdığı "Məhsul" stadionunda, iştirakçıların böyük əksəriyyətinin jurnalistlər, foto-reportyorlar, hətta ticarət məqsədi ilə yığışanlar olduğunu nəzərə alsaq, mitinq niyyəti ilə gələnlərin bu göstəricinin də yarısı qədər olduğu qənaətinə gəlmək olar. Daha dəqiq desək, sosial sifariş olmayan bu aksiyalar dağıdıcı müxalifətin ictimai dəstəyə malik olmadığını bir daha təsdiqlədi.*

### Satqınlıq Gültəkin Hacıbəyli üçün qeyri-adi bir davranış tərzi sayılmır

Uğursuz mitinqlərin ən acınacaqlı, utancverici məqamları isə, təkcə natiqlərin təkrarlanan çıxışlarındakı şər-böhtan yox, həm də düşmən dəyirmanına su tökən mövqe nümayiş etdirmələridir. Keçmiş millət vəkili Gültəkin Hacıbəylinin, Azərbaycan əsgərləri barədə xəstə təxəyyülünün məhsulu olan fikirlər söyləməsi isə, rəzalətdir. Bu qadın dövlət mənafelərini nəzərə almamaqla yanaşı, əsgər adına da hörmətsizlik nümayiş etdirir. Bəs, Azərbaycan dövlətinin orduya aldığı silah-sursatın sınıq və yararsız olduğunu söyləməklə kimlərə mesaj ünvanlamaq niyyətindədir, Hacıbəyli Gültəkin? Ermənistan ordusunamı, və ya işğalçı Sarkisyan rejiminəmi? Birbaşa dövlət maraqlarının əleyhinə işlənmiş böhtanla düşməni ruhlandırmağamı çalışır? Yoxsa bir milyon qaçqını olan xalqı düşmən gözündə aşağılamağa cəhd edir? Bu, xəyanət, eyni zamanda erməniyə xidmət deyil, bəs nədir?! G.Hacıbəylinin bu çıxışını da Ermənistan mediası dərhal tirajladı. Bu belə də olmalı idi, çünki əvvəla, bu çıxış ümumiyyətlə düşmən maraqlarına xidmət edirdi və ermənilərin planı ilə səsləndirilirdi deyə, plana müvafiq olaraq, Ermənistan mediası çıxışın yayımlanmasına hazır idi. Digər tərəfdən, axı Hacıbəyliyə xəyanətinin müqabilində vədlər verənlərin məqsədi elə Ermənistan mediasında Azərbaycan əleyhinə dezinformasiyalar yaymaq idi. Düşmənə xidmət etmək, vətənə xəyanət, satqınlıq, məhz bundan ibarətdir və göründüyü kimi, satqınlıq Hacıbəyli Gültəkin üçün qeyri-adi bir davranış tərzi sayılmır. Bu adamın işinə, maraqlarına uyğun olmadığda hər şeyi, hətta əqidəni, xalqı, milli maraqları, dövləti satmaq adi hal hesab olunur.

Onları birləşdirən və eyniləşdirən xəyanətkarlıq və satqınlıq xislətidir. Əslində, G.Hacıbəyli bir zamanlar indi yanında durduğu Ə.Kərimlini təhqir etməkdən yorulmurdu. İndi, sadəcə, deputat olmadığı üçün cinahını dəyişən, müxalifətin qondarma "Milli Şura"sında, onun hansısa qanadında, qolunda xislətinə uyğun fəaliyyət göstərməklə, bir vaxt təhqir etdiyi Kərimliyə əl çalır və az qala onu totemləşdirir. Kərimli də yaxşı başa düşür ki, dünən onu təhqir edib bu gün əl çalan, əqidəsini dəyişən bir insan istənilən vaxt yenə də fərqli mövqedə dayana, onun özünü də sata bilər. Sadəcə, bu gün Ə.Kərimliyə xas olan, lazım olduğu zaman istifadə edib, istifadəyə yararsız olduqda, atmaq "məharətinə" güvənən



AXCP sədri də buna hazırlıqlıdır. Axı, bu adam maraqları təmin olunsun deyə, şeytanla da əməkdaşlığa razıdır. İndi də tribunanı bölüşdüyü, çiyin-çiyinə dayandığı Cəmil Həsənlini də təhqir edən, onu oğru adlandıran, sanki G.Hacıbəyli deyilmiş. Bəs oğru adlandırdığı bir adamla iş birliyi, əqidə ortaqlığı olmağa nə vadar edir bu qadını? Əlbəttə ki, maraqlar. Bəli, oğru xislətinə, xəyanətkar təbiətinə məxsus olan maraqlar. Guya Həsənli Cəmillə Hacıbəyli Gültəkinin arasında nə kimi fərq var? Hər ikisi də deputat mandatını əldən verdiyi zaman demokrat olası olub axı. Nədənsə, G.Hacıbəyli kimi C.Həsənlinin də parlamentdə oturanda yadına müxalifətdə təmsil olunmaq düşmürdü. Ya bu iki eyni əqidəli adam mandat sahibi olanda, müxalifətə ehtiyac yox imiş, ya da bunlar parlamenti tərk edər-etməz ölkədə müxalifət çox vacib bir faktora çevrildi.

Ə.Kərimlinin Dağlıq Qarabağdakı separatçı rejimin lideri Bako Saakyanın oğlu Armen Saakyanla birgə Azərbaycana qarşı od püskürən oğlu Türkel Kərimlinin və ətrafındakıların siyasi karyerası, əslində, sonsuz xəyanətlər, qisaslar və intriqalar toplusudur. Onlar Azərbaycanda hakimiyyətə gəlmək üçün ölkənin və millətin düşmənləri ilə də separat danışıqlar aparıb, sövdələşib, "maliyyə dəstəyi" və "qrant"lar qismində paylar alıb, üzərinə xəyanətkarlıqdan başqa dəyərləndirilə bilməyən öhdəliklər götürənlərdir. AXCP sədrinin və onun ətrafının son 25 ildəki fəaliyyəti, hakimiyyət yanğısı uğrunda milli dəyərlərin, millətin maraqlarının və demokratiyanın hərraca çıxarılmasından ibarətdir. Azərbaycana qarşı çıxaraq, ölkəmizin düşmənləri ilə ittifaq quran, xaricdəki rejissorların əmrlərini yerinə yetirən Ə.Kərimlini acı tale gözləyir. Çünki tarix satqınları heç vaxt bağışlamır və onlara qarşı amansızdır.

***İnam HACIYEV***

# Müxalifət axırda Elman Türkoğlunun ümidinə qalacaq

*Təhmasib Novruzov: "Müxalif partiya sədrlərinin sonu iflasdır"*

Yaxın vaxtlarda müxalifət düşərgəsindən daha bir neçə partiyanın buraxılacağı və ya başqa partiyalara transfer olunacağı proqnozlaşdırılır. Çünki düşərgə daxilində hökm sürən hərci-mərclik, funksionerlərarası qarşıdurmalar bunu deməyə əsas verir. Bunun fonunda Cəmil Həsənlinin, Arif Hacılının, İsa Qəmbərin və digərlərinin xaricə gedərək, orada Azərbaycan əleyhinə iş aparmaları da düşərgə daxilində gərginlik yaradan amillərdəndir. "Azadlıq" Hərəkatçılar Birliyinin sədri Təhmasib Novruzov da "Səs" qəzetinə açıqlamasında bildirdi ki, Azərbaycanda özünə dəstək tapmayan müxalifət təmsilçiləri kənardan verilən dəstək hesabına nəyə isə nail olmaq istəyirlər: "Radikal müxalifət düşərgəsini təmsil edən partiya sədrlərinin bu cür hərəkətlərə əl atmalarının sonu, yenə də iflasdır. Belə bir misal var, deyilir, milçək bir şey deyil, amma ürək bulandırır. Yəni adları çəkilən Ə.Kərimlinin, A.Hacılının və C.Həsənlinin bu cür hərəkətləri də cəmiyyətdə ürək bulandırmaqdan başqa bir şey deyil. Nəticə onlar üçün acınacaqlı olacaq. Sonda müxalif partiya sədrləri bayraqdar Elman Türkoğlunun ümidinə qalacaqlar. Həm xarici, həm də daxili qüvvələrin məqsədi ələbaxım rolunda çıxış edən müxalifətdən ölkəmizdə xoş olmayan ab-hava yaratmaq üçün istifadə etməkdir".

Təşkilat sədri, onu da bildirdi ki, müxalifətin ifşası həm də onlara himayədarlıq edən məkrli xarici maraqlı qüvvələrin də ifşası deməkdir: "Azərbaycanda bir balaca problem yaranırsa, müxalifət düşərgəsini təmsil edən şəxslər çalışırlar ki, bu problemi daha da böyüdərək, ondan öz siyasi maraqları üçün istifadə etsinlər. Bunun da səbəbi xaricdə olan havadarlarına özlərini reklam etdirməkdədir Yəni dağıdıcı müxalifət düşərgəsini təmsil edən şəxsləri maliyyələşdirən xarici havadarlarına demək istəyirlər ki, baxın, biz fəaliyyət göstəririk. Bir sözlə, heç bir sözü, təklifi və inkişaf üçün bacarığı və qabiliyyəti olmayan şəxslərin ölkəmiz haqqında xoşagəlməz fikirlər səsləndirmələri onların yaramaz bir qrup olduğunu təsdiqləyir. Ümumiyyətlə, maliyyə məsələsi elə məsələdir ki, ya gərək boyun əyməyəsən, əgər onun maliyyəsinə boyun əydinsə, onda artıq o, sənin üzərində hökmdara çevrilir. Demək olar ki, müxalifət düşərgəsini təmsil edən həmin şəxslər maliyyə məsələsinə görə, xarici qüvvələrin əlində bir alətə çevriliblər. Bu da, onları daha dərin uçuruma aparacaqdır".

T.Novruzov onu da bildirdi ki, müxalifət düşərgəsində təmsil olunan şəxslər reallığı özündə əks etdirməyən xəyallarla yaşayaraq, ümid edirlər ki, nə vaxtsa onlar da nəyə isə nail ola biləcəklər: "Onların bu arzularının həyata keçməsi mümkün deyil. Çünki həmin qüvvələr xalqın inamını itirmiş yalançılardır. Bu baxımdan da, müxalifət düşərgəsini təmsil edən qüvvələr öz fəaliyyətsizliklərini çox gözəl başa düşürlər. Yəni müxalifət liderləri başa



düşürlər ki, uğursuzluğa düçar olublar və onların cəmiyyətdən heç bir dəstəyi yoxdur. Təəccüblü məqam odur ki, həmin liderciklər öz uğursuzluqlarını başa düşsələr belə, yenə bunu büruzə vermək istəmirlər. Bu isə, onların faciəsidir".

T.Novruzov bildirdi ki, dağıdıcı müxalif ünsürlər 2018-ci ildə keçiriləcək seçkilərə hazırlıq görürlər: "Əlbəttə ki, onların seçkilərə hazırlıq görmələrinin heç bir nəticəsi olmayacaq. Hər zaman müxalifət düşərgəsini təmsil edən şəxslər ölkədə keçirilən bütün seçkiləri uduza-uduza gəliblər. Bu baxımdan da, 2018-ci ildə keçiriləcək prezident seçkilərində müxalifətçilər uduzacaqlar. Yəni müxalifətçilərin seçkilərdə qalib olmaq şansları sıfıra bərabərdir. Bir sözlə, uğursuzluğa düçar olmaq müxalifətin alın yazısıdır. Çünki onların Azərbaycan xalqı tərəfindən heç bir siyasi dəstəyi yoxdur. Demək olar ki, müxalifətin var olub-olmaması cəmiyyət üçün maraqlı deyil. Belə olan halda da, yaxşı olardı ki, müxalifət sakitcə öz yerində otursun".

***GÜLYANƏ***

## Müxalifət etiraf edir - "zəifik"!

Növbəti il keçirilməsi nəzərdə tutulan prezident seçkiləri yaxınlaşdıqca, dağıdıcı müxalifət sıralarında yenidən birləşmək çağırışları səslənməyə başlayıb. Halbuki 1990-cı illərin ortalarından 2013-cü ilədək müxalifət düşərgəsində çoxsaylı ittifaqlar, bloklar qurulsa da, onların hər biri uğursuzluğa düçar olub.

### Tural Abbaslı: "Bu dəfə də nəzərdə tutulan ideal və səmimi birlik modeli alınmayacaq"

Artıq müxalifət düşərgəsində bu kimi mövzularda kəskin inamsızlıq hökm sürür. Məsələn , "Ağ Partiya"nın sədri Tural Abbaslıya görə, bu mövzu ənənəvi düşərgənin siyasi gündəminə gəlməklə, sadəcə, söz olaraq deyilir. "Bu günə qədər olan birlik təcrübələrimiz, eyni zamanda prosesin gedişi, onu deməyə əsas verir ki, bu dəfə də nəzərdə tutulan səmimi birlik modeli alınmayacaq" deyə qeyd edən müxalifətçi, eyni zamanda bildirib ki, bu cür yanaşma effekt verməyəcək: "Sadəcə olaraq, seçkidən sonra növbəti uğursuzluqları ört-basdır etmək üçün bir-birilərini ittiham etməkdən yana növbəti platforma rolu oynayacaq". Abbaslıya görə, müxalifət, yaxşı olardı ki, öz daxilində ciddi islahatlar aparsın. Əks halda, düşərgə daha böyük uğursuzluqlar yaşamalı olacaq. Bu baxımdan, o, hətta təklif gələrsə, belə onu rədd edəcəyini deyib: "Biz, hələlik, heç bir digər siyasi qüvvə ilə birlik yaratmaq və seçkilərə birgə getmək barədə düşünmürük. Bu işi özümüz üçün indiki məqamda faydasız hesab edirik".

### Əli Orucov: "İndiyədək müxalifət ən yaxşı halda, iki formatda birləşə bilib və heç zaman da son yaxşı olmayıb"

AMİP katibi Əli Orucov da bu kimi ideyalarln köhnəldiyini düşünür. "Müxalifətin yaratdığı seçki birlikləri və blokları ilə uğurlu nəticələr əldə etmək mümkün olmayıb" deyə qeyd edən AMİP-çi funksionerə görə, təəssüf doğuran o olub ki, seçkilər bitdikdən sonra seçkidən öncə müttəfiq olan siyasi qüvvələr bir-birilərinə düşmən kəsiliblər: "İndiyədək müxalifət, ən yaxşı halda, iki formatda birləşə bilib və heç zaman da son yaxşı olmayıb". Ona görə, AMİP rəsmisi də hesab edir ki, nə birliklər, nə də vahid namizədlər məsələsi ətrafında müzakirələr səmərəsiz vaxt itkisindən başqa bir şey deyil. Beləliklə, fakt budur ki, müxalifət bütün mənalarda öz zəifliyini və uğursuzluğunu etiraf etmək məcburiyyətindədir.

***R.NURƏDDİNOĞLU***

# Azərbaycanın ailə ənənələri: böyük ailələr

***Cəmiyyətin əsasını ailə təşkil edir. Bəşər tarixinin bütün dövrlərində ailə ənənələri insanları birləşdirən və doğmalaşdıran əsas təsisat olub. Məşhur amerikan alimi L.Morqanın yazdığı kimi, "ailə fəal bir başlanğıcdır, o, heç bir vaxt bir yerdə dayanıb durmur, cəmiyyət aşağı pillədən yüksək pilləyə doğru inkişaf etdikcə, o da aşağı formadan yuxarı formaya keçir". Tarixin müxtəlif inkişaf mərhələlərində baş verən ictimai-iqtisadi, siyasi və mədəni dəyişikliklər ailədə və onun məişətində də öz əksini tapır. Deməli, ailə ictimai-tarixi kateqoriyadır. Azərbaycan etnoqrafı Qəzənfər Rəcəbli yazır: "Cəmiyyətin özəyini təşkil edən ailələr nikah münasibətləri əsasında qurulur, qan qohumluğu prinsipi ilə formalaşır, qarşılıqlı cavabdehlik, məsuliyyət və köməklik kimi ənənəvi münasibətlər sistemi ilə möhkəmlənirlər. Ailə üzvləri - ər ilə arvad, valideynlər ilə övladlar və qardaşlar ilə bacılar arasındakı özünəməxsus münasibətlər sistemi ailənin əsas əlaqələrini müəyyənləşdirir.***

İnsanların həyatının çox hissəsi ailədə keçir. Təsərrüfat ənənələrinin və əmək vərdişlərinin əsası, yeni nəslin tərbiyəsinin təməli ailədə qoyulur, onların maddi və mənəvi tələbatları burada təmin olunur, qarşılıqlı cavabdehlik, məsuliyyət və köməklik hissləri ailədə formalaşır. Deməli, ailəni səciyyələndirən əsas xüsusiyyətlər nikah, qan qohumluğu, məişət birliyi və ailə üzvləri arasındakı münasibətlər sistemindən ibarətdir. Ailə tarixi inkişafın müəyyən mərhələsində nikah və qan qohumluğu əsasında cəmiyyətin özəyi kimi təşəkkül tapmış ümumi mənafe ilə birləşən, məişət birliyi və birgə yaşayış şəraiti ilə bir-birinə bağlı olan insanların ən kiçik təbii kollektividir. Ailə, həm də mənəvi dəyərlərin, o cümlədən, adətlərin və mərasimlərin icra olunduğu özəkdir. Şübhəsiz, Azərbaycan ailəsi də qədim zamanlardan bəri bəşəriyyət üçün səciyyəvi olan bu əsaslar üzərində qurulmuşdur".

Azərbaycanda ailənin təşəkkülü və inkişafı aşağıdakı tarixi mərhələlərdən keçmişdir:

**1. Eneolit dövrü.**
**2. Erkən Tunc dövrü.**
**3. Orta əsrlər.**
**4. XVIII-XIX əsrlər.**
5. Müasir dövr (XX-XXI əsrlər).

Azərbaycan ailəsi və ailə məişəti haqqında mənbələrdə, yazılı abidələrdə və qaynaqlarda, XIII əsr böyük Azərbaycan alimi Nəsirəddin Tusinin, Azərbaycan ədəbiyyatı klassiklərinin əsərlərində və şifahi xalq ədəbiyyatının inciləri olan dastanlarda dəyərli məlumatlar vardır. Azərbaycanlıların ailə və ailə məişətinə dair maraqlı materiallar XI-XVIII əsrlərə aid mənbələrdə də öz əksini tapmışdır. Azərbaycanda ailə və ailə məişəti məsələləri XVIII əsrin sonundan başlayaraq, XIX əsr və XX əsrin başlanğıcında yazılmış etnoqrafik səpkili rusdilli ədəbiyyatda da öz əksini tapmışdı.

Həmin materialların müqayisəli təhlili aydın surətdə göstərir ki, Azərbaycanda orta əsrlərin ailə məişəti ilə yeni dövrün ailə məişəti arasında kəskin fərqlər olmamışdır, yəni Azərbaycan xalqının ailə məişətində varislik ənənələri müşahidə edilir. Deməli, Azərbaycan xalqı ailə və ailə məişəti ilə bağlı olan adətənənələrini əsrlər boyu qoruyub-saxlaya bilmiş, onları təkmilləşdirmiş, inkişaf etdirmiş və bu ənənələr tarixin sınaqlarından keçərək, zəmanəmizədək gəlib çatmışdır.

Qəzənfər Rəcəbli yazır: "Azərbaycan ailəsi dünyanın əxlaqi cəhətdən ən təmiz və möhkəm ailələrindən biridir. Ailə üçün mühüm olan bu xüsusiyyətlərin dərin kökləri vardır. Həmin köklər Azərbaycan ailəsinin inkişaf yolu ilə bağlıdır. Dünyanın bütün xalqlarında olduğu kimi, azərbaycanlılarda da tarixi inkişaf prosesində ailənin həcmi və strukturu ilə müəyyən edilən iki forması mövcud olmuşdur: böyük ailə və kiçik ailə.

Böyük ailələr tarixi və etnoqrafik ədəbiyyatda ailə icması, yaxud patriarxal ailə, nəsli ailə, bölünməmiş, birləşmiş və ya mürəkkəb ailə və s. adlarla məlumdur. Ailə icması üç, dörd və bəzən beş nəslin nümayəndələrindən ibarət olub ata, oğul, nəvə, nəticə və eləcə də, qardaşların ailələrini birləşdirən kiçik ictimai kollektiv, təsərrüfat özəyidir. Bu kollektivə onun ağsaqqalı başçılıq edirdi. Ailə icması üçün səciyyəvi cəhət onun üzvlərinin torpaqdan, əmək alətlərindən, ev heyvanlarından, digər mülkiyyət və əmlakdan birlikdə istifadə etməklə, birgə istehsal və birgə mənimsəmədir. Bu xüsusiyyətlər, ailə icmasının təsərrüfat və ictimai mahiyyətini müəyyənləşdirməklə, onun təbii əsasını təşkil edir".

Tədqiqatçıların qənaətinə görə, ailənin tarixi forması olan böyük ailənin təşəkkülü xüsusi mülkiyyətin meydana çıxması, ata nəslinin qərarlaşması və nəticədə qəbilə icmalarının dağılması, kənd icmalarının yaranması ilə əlaqədardır. Qan qohumluğu prinsipi ilə təşəkkül tapmış qəbilə icmalarından fərqli olaraq, kənd icmalarında böyük patriarxal ailələr qonşuluq və ərazi prinsipləri ilə birləşirlər. Kənd icmaları daxilində mövcud məhsuldar qüvvələrin inkişaf səviyyəsi, təbii olaraq, ailə icmalarının həcmini məhdudlaşdırırdı. Böyük ailələr müəyyən həddə çatdıqda, parçalanaraq kiçik ailə icmalarına bölünürdülər. Bu yeni ailə icmaları da böyüyərək, müəyyən həddə çatdıqdan sonra, öz növbəsində, daha yeni ailə icmasına bölünürdülər.

Azərbaycanda qəbilə icmalarının nə vaxt kənd icmaları ilə əvəz olunması və onların tərkibində ailə icmasının nə vaxt yaranması haqqında dəqiq məlumat yoxdur. Ailə icmalarının yaranması və dağılması tarixini dəqiq müəyyənləşdirmək mümkün deyildir. Qonşu İran və Orta Asiyada ailə icmalarının dağılmasını və böyük ailələrin kiçik ailələrə parçalanmasını rus alimləri eramızın V əsrinə aid edirlər. Azərbaycan etnoqrafi Q.Qeybullayev də həmin materiallara əsaslanaraq, Azərbaycanda böyük ailələrin V əsrdən başlayaraq, kiçik ailələrə bölünməsini ehtimal edir. Bu fərziyyə orta əsr Azərbaycan xalq dastanlarının materialları ilə də təsdiq olunur. Dastanlarda böyük ailələr haqqında, demək olar ki, heç bir məlumat verilmir və təsvir olunan ailələrin hamısı kiçik ailələrdir. Bu da təbiidir. Çünki böyük ailələr patriarxal-qəbilə quruluşu üçün tipik olan ailə forması hesab edilir və ibtidai icma quruluşunun dağılması nəticəsində böyük ailələr də dağılmalı idi.

XIX əsrdə Azərbaycanda böyük ailələrin bərpası üçün tarixi şərait yaranır. XIX əsrin ortalarında Azərbaycanda olmuş alman səyyahı A.Qaksthauzen "qalıqlar" halında mövcud olan böyük ailələr haqqında məlumat verərək, yazırdı ki, ata vəfat etdikdən sonra, adət əsasında varidatın bölüşdürülməsinə icazə verilməsinə baxmayaraq, çox vaxt qardaşlar ailənin təsərrüfatına birgə sahiblik etməkdə davam edirdilər. XIX əsrdə Azərbaycanda ailə icmasının bərpası Rusiya imperiyasında çar hökumətinin kənd icmalarının (cəmiyyətlərinin) bərpası üçün göstərdiyi qayğı ilə bağlı idi. Kənd cəmiyyətləri haqqında hazırlanmış əsasnaməyə uyğun olaraq vergilər kənd əhalisinin sayına görə deyil, kənddəki "tüstülərin", yəni ailə təsərrüfatlarının sayına görə müəyyən edilirdi. Vergilərin ödənilməsi üçün cavabdeh olan kənd cəmiyyətləri böyük ailələrin kiçik ailələrə parçalanmasının qarşısını almağa çalışırdılar. Çünki hər yeni ailənin əmələ gəlməsi icmanın ödəməli olduğu ümumi verginin artmasına səbəb ola bilərdi. Kənd cəmiyyətləri daxilində böyük ailələrin saxlanmasında həmin ailələrin özlərinin də maraqları vardı. İcma torpaqlarından birgə istifadə qaydalarına görə, əkin yerləri və biçənəklər, vaxtaşırı, icma üzvləri arasında bölüşdürülürdü. Pay torpaqlarını əkib-becərmək üçün müəyyən miqdarda işçi qüvvəsi, qoşqu heyvanı, toxum və əmək alətləri tələb olunurdu. Kiçik ailələrin belə imkanları az olduğundan, çox vaxt öz pay torpaqlarını əkib-becərməyə gücləri çatmırdı. Kifayət qədər işçi qüvvəsi, qoşqu heyvanı, toxum və əmək alətlərinə malik olan böyük ailələrdə isə, qardaşlar pay torpaqlarını birgə səy ilə əkib-becərə bilirdilər.

XIX əsrin ikinci yarısı - XX əsrin əvvəllərində Azərbaycan kəndinin məişətini tədqiq etmiş müəlliflər Qazax, İrəvan, Naxçıvan, Gəncə, Qarabağ, Şəki, Şirvan, Muğan, Quba, Bakı və Lənkəran bölgələrində, həmçinin, Gürcüstanın və Dağıstanın azərbaycanlılar yaşayan bölgələrində böyük ailələrin mövcud olması haqqında məlumat verir və qeyd edirdilər ki, ailənin başçısı vəfat etdikdən sonra da, varidat ailə üzvlərinin ümumi istifadəsində qalırdı. Ailə əmlakının bölüşdürülməsi nadir hallarda baş verirdi.

Q.Rəcəblinin fikrincə, XIX əsrin ikinci yarısı və XX əsrin əvvəllərində Azərbaycanda böyük ailələrin yaranması tarixən mövcud olmuş ənənəvi yolla, yəni ailə icmalarının müəyyən həddə qədər böyüyərək, nisbətən kiçik ailə icmalarına parçalanması yolu ilə baş vermirdi. Əksinə, bu dövrdə Azərbaycanda böyük ailələrin əksəriyyəti ictimai-iqtisadi şəraitlə əlaqədar olaraq, qardaşların azsaylı kiçik ailələrinin bir qisminin müəyyən müddət, əsasən, atalarının sağlığında bir yerdə yaşamaları nəticəsində təşəkkül tapırdı. Adətən, belə ailələr ailə başçısının vəfatından sonra kiçik ailələrə parçalanırdı və ailə icmaları dağılırdı.

XIX əsrin sonu - XX əsrin əvvəllərində Azərbaycanda qalıq halında, mövcud olan ailə icmalarının necə adlanması haqqında qaynaqlarda heç bir məlumat olmadığı kimi, Azərbaycan etnoqrafiya elmində də, dəqiq və vahid fikir yoxdur. Etnoqrafik ədəbiyyatda böyük ailə mənasında "külfət", "bir çətən", "xizan", "arxa" və s. kimi ifadələr işlədilir. Əslində isə, xalq arasında işlədilən bu sözlər, sadəcə, "ailə" anlayışının sinonimləri olub, dilimizə Azərbaycan xalqının etnogenezi prosesində iştirak etmiş soy və xalqların dillərindən keçmişdir. Böyük ailə üçün 11 nəfərdən çox ailə üzvünün olmasını meyar götürən Q.Qeybullayev XIX əsrin sonunda Azərbaycanın əksər bölgələrini əhatə edən Bakı və Yelizavetpol quberniyalarında 25283 böyük ailənin olduğu qənaətinə gəlmişdir. Əlbəttə, ailə üzvlərinin sayının çoxluğu böyük ailələrin səciyyəvi xüsusiyyətlərindən biridir. Azərbaycanda daha çox üzvü olan böyük ailələr haqqında da məlumat vardır. Etnoqraf Q.Qaraqaşlı XX əsrin əvvəllərində Qazax qəzasında hər birinin 30-40 nəfər üzvü olan böyük ailələr haqqında məlumat vermişdir. Lakin ailə üzvlərinin sayının çox olması ailə icmaları üçün yeganə meyar hesab edilə bilməz. Ailə icmaları üçün əsas meyarlardan biri də, ailə üzvlərinin sayı ilə yanaşı, müxtəlif nəsilləri təmsil edən bir neçə kiçik ailənin birgə yaşamasıdır, yəni valideynlərin öz oğullarının ailələri ilə birlikdə yaşayıb, bir təsərrüfat daxilində kollektiv həyat tərzi sürməsidir. Ailə üzvlərinin sayına gəldikdə isə, qeyd etmək lazımdır ki, Azərbaycanda o dövrdə üzvlərinin sayı 11 nəfərdən çox olan "kiçik" ailələr də az deyildi.

***Vahid ÖMƏROV,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

## Dəniz qumunun xeyirli və ziyanlı tərəfləri...

Bir çoxlarımız dənizdə qum üzərində gəzərkən psammoterapiya - qumla müalicə növü ilə məşğul olduğumuzu bilmirik. İsinmiş qum orqanizmin hüceyrələrinə istini ötürərək, orqanlarımızı içəridən isidir. Bu isə bir çox xroniki iltihab reaksiyalarının müalicəsində kömək edir.

Bundan əlavə isti qum, reseptor olaraq, dəri, oynaq və daxili orqanların istilik reseptorlarını qıcıqlandırır. Bu mexaniki təzyiq dəri və yumşaq hüceyrələrin qan və limfotik damarlarına təsir edərərək, kapilyar və arteriyaların torunu genişləndirir, bunula da qan axını güclənir və onun bölüşdürülməsi baş verir. Ürək -damar sisteminin iş prinsipi nizama salınır. Həmçinin dəniz qumu yüksək tərləmə səviyyəsini müalicə edə bilir. Bunun üçün yalnız qumun üzərinə uzanmalısınız ki, o, çox miqdarda ifraz olunan təri özünə çəkə bilsin.

İsti qum revmatizm xəstəliyi zamanı da çox müsbət təsir göstərir. Bunun üçün yaş qum yox, dənizdən müəyyən miqdarda qum götürüb, onu günəşdə qurudub, isidərək onunla problemi zonanı örtmək məsləhət görülür. Belə vannada 30 dəqiqə oturub, ılıq su ilə yuyunub, 2 saat istirahət etmək çox yaxşı nəticə göstərir.

## Tünd şokolad yaşlı insanlarda enerjini artırır...

Yaşlı insanlar ayaqlarında qan dövranının pozulmaları səbəbindən sərbəst hərəkət edə bilmirlər. Yalnız tünd şokolad bu problemə müsbət təsir göstərir. Təcrübə göstərir ki, periferik arteriyası xəstə olan insanlar tünd şokolad yedikdə yerişin müddəti və distansiyasını artıra bilirlər. Effekt bir neçə saatdan sonra özünü göstərmişdir. Bu təsir yalnız tünd şokolada aiddir, südlü şokolad bu təsirə malik deyil. Sapiensiya Universitetindən çalışan Lorrenso Loffredonun dediyinə görə, tünd şokladın tərkibinə müxtəlif qidalı maddələr,həmçinin polifenollar daxildir. Ateroskleroza əsasən isə düzgün qidalanma damarların vəziyyətini yaxşılaşdıra bilir. Polifenollar isə öz növbəsində qan axınını yaxşılaşdırır.

Ümumi diskomfort, spazm və ayaqlarda olan ağrılardan əlavə, damar xəstəlikləri ürək pristupu və insultun təhlükəsini artırır. Şokoladın effektini 14 könüllü yaşlı üzərində onların yürüş zolağı trenajorunda maximal müddətdə yerimələri ilə yoxlayıblar. Birinci təcrübədən sonra könüllülərə şokolad paylayıblar və 2 saatdan sonra təcrübə yenidən baş tutub.

Nəticədə şokolad yeyən iştrakçılar öz göstəricilərini 17 saniyə və 1 metr artırıblar. Həmçinin onların qan tərkibində qaz konsentrasiyası yüksək olub, o isə qan axınını yaxşılaşdırır. Yalnız unutmayın ki, şokolad kalorili məhsul olduğuna görə , piylənməyə gətirə bilər.

## Azərbaycan idmançıları dünya çempionatında iki bürünc medal qazanıblar

Azərbaycan idmançıları Rusiyanın Yekaterinburq şəhərində Ümumdünya Kyokşin İttifaqı (KWU) tərəfindən keçirilən üçüncü dünya çempionatında iki bürünc medal qazanıblar. Azərbaycan Kyokşin Karate Federasiyasından AZƏRTAC-a bildirilib ki, 50 ölkədən 300 idmançının qatıldığı yarışda ölkəmizi federasiyanın prezidenti Allahverdi Rüstəmovun rəhbərliyi ilə yeddi idmançı təmsil edib.

Karateçilərimizdən Emin İsmayıllı (65 kq) və Valeh Cəfərov (70 kq) çempionatın bürünc medallarına layiq görülüblər.

## Azərbaycan Qran Prisi 2017-ci ilin ən yaxşı yarışı seçilib



Formula 1 üzrə Azərbaycan Qran Prisi 2017-ci ilin ən yaxşı yarışı seçilib. Bakı Şəhər Halqası Əməliyyat Şirkətindən (BŞH) Qol.az-a verilən məlumata görə, Azərbaycanın paytaxtında gerçəkləşən mərhələ dünyanın aparıcı kütləvi informasiya vasitələrinin sorğusunda birinci olub. "Daily Mail", "Sky Sports", "The Times", "Bild am Sonntag", "ViaSat" kimi nüfuzlu nəşrlərin avtoidman azarkeşləri, media nümayəndələri və Paddok Klubun təmsilçiləri arasında apardığı sorğuda əksəriyyəti Bakıdakı yarışı fərqləndirib.

Qeyd edək ki, Azərbaycan Qran Prisində "Red Bull" komandasının pilotu Daniel Rikkardo gözlənilməz şəkildə qələbə qazanıb. Yarış zamanı Luis Hamilton ilə Sebastian Fettel arasında baş vermiş toqquşma avtoidman tarixində yaşanan ən yaddaqalan hadisələrdən biri olub. Bundan başqa, Formula 1-in təkər təchizatçısı "Pirelli" şirkətinin yayımladığı son hesabatında bildirilir ki, 2017-ci ildə bütün Qran Prilər arasında Bakı yarışı 42 ötmə ilə ən çox ötmənin olduğu yarış olub. Qeyd edək ki, 2018-ci il Azərbaycan Qran Prisi 27 - 29 apreldə keçiriləcək.

## Lui van Qal Joze Mourinyonu tənqid edib

"Mançester Yunayted"in sabiq baş məşqçisi Lui van Qal klubun hazırkı çalışdırıcısı Joze Mourinyonu tənqid edib. Qol.az-ın məlumatına görə, ölkəsinin mətbuatına danışan hollandiyalı mütəxəssis Mourinyonun darıxdırıcı futbol oynatdığını deyib: "Mançester Yunayted"in əvəzinə "Mançester Siti"nin oyununu izləməyi üstün tuturam. "Mançester Yunayted"i çalışdırdığım dönəm karyeramın ən yaxşı vaxtları idi. Yetərincə yaxşı oynamağımıza baxmayaraq, İngiltərədə bəyənilmirdim. Bu komanda bu mövsüm çox darıxdırıcı futbol oynasa da, Mourinyonun mənim qədər tənqid olunmur ". Van Qal portuqaliyalı mütəxəssisin ondan fərqli olaraq, "MY"da müdafiə futbolu oynatdığını bildirib: "Mənim vaxtımda isə biz hücum futbolu oynayırdıq".

## II Beynəlxalq Boks Forumu Bakıda keçiriləcək




II Beynəlxalq Boks Forumu Bakıda keçiriləcək. Foruma dünyanın aparıcı boks təşkilatları olan AIBA, WBA, WBC, IBF, WBO-nun rəhbərləri toplaşacaqlar. AZƏRTAC Rusiya Boks Federasiyasının baş katibi Umar Kremlyova istinadla xəbər verir ki, Birinci Beynəlxalq Boks Forumu 2018-ci il fevralın 1-4-də Soçidə keçiriləcək.

Onun sözlərinə görə, Rusiya Boks Federasiyası forumda müxtəlif ölkələrdən daha çox nümayəndənin iştirakı üçün əlindən gələni əsirgəməyib. U.Kremlyov qeyd edib ki, forumun hər il keçirilməsi planlaşdırılır və Azərbaycan nümayəndələri növbəti forumun bu ölkədə keçirilməsi təşəbbüsü ilə çıxış ediblər. Federasiya başçısı, həmçinin bildirib ki, forum çərçivəsində Çempionlar Şurası və Promouterlər Şurası yaradılacaq.

Rusiya Boks Federasiyasında da il başa çatdığından forumu fevralda keçirmək qərara alınıb. Fevralın 1-də açılış, 2-də isə müzakirələr və dialoq olacaq. Beynəlxalq Çempionlar Şurası və Promouterlər Şurası yaradılacaq. Bu forumun hər il keçirilməsində məqsəd açıq dialoq aparılması, federasiyalar və ölkələr arasında qarşılıqlı əlaqələr qurulmasıdır. Beynəlxalq Boks Superseriyasını da bu foruma daxil etmək təklif olunur.




## "Barselona" heyətinə müdafiəçi cəlb edəcək

"Barselona" qış transfer dönəmində heyətinə mərkəz müdafiəçisi cəlb edəcək. SİA-nın məlumatına görə, kataloniya klubuna yanvarda qoşulacaq oyunçu artıq bəllidir. Bu, "Palmeyras"ın üzvü Yerri Minadı. Klublar bir müddət əvvəl bu transferdə ortaq məxrəcə gəlmişdilər və keçid mövsümün sonuna planlaşdırılırdı. Lakin Samuel Umtitinin zədələnməsi və Xavyer Maskeranonun gələn ay ayrılmaq istəməsi Minanın transferinin tezləşməsinə səbəb olacaq. Kolumbiya millisinin 23 yaşlı üzvü dekabrın sonunda İspaniyaya köçəcək. Bu keçid "Barsa"ya 9 milyon avroya başa gələcək.

### ELAN

**Azərbaycan Dövlət Pedaqoji Universitetinin Azərbaycan dili və ədəbiyyat tədrisi metodik və metodologiyası ixtisası üzrə II kurs magistri Əsədova Səyidə Əsəd qızının adına verilmiş magistr bileti itdiyi üçün etibarsız sayılır.**

x x x

**Azərbaycan Dövlət Pedaqoji Universitetinin Təhsildə Sosial Psixoloji Xidmət ixtisası üzrə II kurs tələbəsi Gülay Altanın adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.**

*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

*Buraxılışa məsul: Mətləb Salahov*

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in kompüter mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 5500